**RUHULLA ZAHİDOV**

# İLHAM ƏLİYEV
# VƏ
# AZƏRBAYCAN

**(Publisistik məqalələr toplusu)**

**Gəncə – 2024**

**Tərtib edən:** **Ruhulla Zahidov, yazıçı-jurnalist**

**Elmi redaktor:** **Elçin Cavadov, Gəncə Dövlət Universitetinin kafedra müdiri, texnika elmləri doktoru**

**Korrektor:** **Nərmin Zahid**

**İlham Əliyev və Azərbaycan.** ***Gəncə, 122 səh.***

***Kitabda Gəncə şəhərinin dövlət rəsmiləri və ictimai xadimlərinin, təhsil, idman və mədəniyyət işçilərinin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin hakimiyyətdə olduğu 20 il ərzində Azərbaycan dövlətçiliyi üçün sərf etdiyi gərgin əməyin təbliğinə həsr edilmiş yazıları öz əksini tapmışdır.***

***Kitab az tirajla çap olunmasına baxmayaraq, geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.***

@ Gəncə, 2024.

# Ön söz

Respublikamız bu gün dinamik sürətlə inkişaf edir. Demokratik, sivil dövlət quruculuğu, demokratiyanın inkişaf etdirilməsi yönümündə atılan addımlar doğma Azərbaycanımızın dünyanın ən inkişaf etmiş ölkələri sırasına qatılmasında böyük amildir. Ulu Öndərin qurduğu müstəqil Azərbaycan dövləti hər gün daha da inkişaf edir və onun parlaq ideyaları müstəqillik yolumuzu daim işıqlandırır.

Müasir Azərbaycanın bütün sahələrdə əldə etdiyi inkişaf və uğurlar Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı, onun siyasi kursunun varisi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yeritdiyi düzgün daxili və xarici siyasətin nəticəsində əldə olunmuşdur. Bu inkişaf hal-hazırda həyatımızın bütün sahələrini əhatə edir. Bu gün güclü iqtisadiyyata malik dövlətimiz öz xalqının firavan həyatı üçün əlindən gələni edir. Azərbaycan siyasi kursa malik sivil dövlətlər siyahısında ön cərgələrdə yer tutur, güclü hərbi və iqtisadi potensiala sahib dövlət kimi regionda aparıcı rol oynayır. Bu uğurlar Azərbaycan xalqının bütün övladlarını fərəhləndirir, onlarda qürur hissi oyadır. Xarici və daxili siyasətdə əldə olunan uğurlar respublika ictimaiyyəti tərəfindən sevinclə qarşılanır.

Müasir tariximizə möhtəşəm 20 il kimi yazılan ötən dövrdə Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyevin inkişaf etdirərək yeni geosiyasi şərtlərə uyğunlaşdırdığı siyasət nəticəsində Azərbaycan Respublikası misilsiz inkişaf yolu keçmişdir.

Cənab İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, milli maraqlara söykənən daxili və xarici siyasəti qısa müddətdə ona xalq arasında böyük rəğbət, sonsuz inam və etibar qazandırdı.

Məhz bu keyfiyyətlərinə görə xalqımız keçirilən prezident seçkilərində cənab İlham Əliyevi öz müstəqil dövlətinə yenidən rəhbər seçdi.

Dövlətimizin apardığı düzgün uğurlu siyasət milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı yönümündə də böyük dönüşə səbəb olmuşdur. Bu dəyərlərdən bəhrələnmək, onu qorumaq və inkişaf etdirmək kimi istəklər respublikamızın ictimaiyyəti qarşısında təxirəsalınmaz, ümummilli vəzifələr qoyur.

Mənəvi cəhətdən daha da təkmilləşmək, mənəvi mədəniyyətin zirvəsinə ucalmaq müasir həyatımızın obyektiv tələbidir.Gəncə şəhərinin ziyalıları dövlətimizin onlara göstərdiyi qayğını qiymətləndirir, bu qayğıya əməli işi ilə cavab verirlər.

Bu kitab Gəncə şəhərinin bir qrup ziyalılarının Respublikamızın Prezidenti cənab Ilham Əliyevin növbəti dəfə Prezident seçkilərində qazandığı qələbə haqqında hazırlaqdıqları təbrik xarakterli yazılarının toplusundan ibarətdir. Onların müəllifi olduqları yazılar müxtəlif mənbələrdən götürülmüş və publisistik yazılar olaraq, kitaba daxil edilmişdir. Ümid edirik ki, atdığımız bu addım oxucular və müəlliflər tərəfindən rəğbət və hörmətlə qarşılanacaqdır.

**Ruhulla Zahidov, yazıçı-jurnalist.**

,

# Zəfər təntənəsi: Xalq-Lider birliyinin möhtəşəm ifadəsi!



2024-cü il fevralın 7-də keçirilən prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyev bir daha inamlı qələbə qazandı. Mərkəzi Seçki Komissiyasının məlumatına görə, ilkin nəticələrə əsasən seçicilərin 92 faizindən çoxu cənab İlham Əliyevə səs verərək onu növbəti müddətə Prezident seçdi. Budəfəki prezident seçkiləri də yüksək seçici fəallığı fonunda baş tutdu. Belə ki, seçici fəallığı 76,73 faiz təşkil edib. Yəni respublika üzrə 4 milyon 971 min 32 nəfər seçki məntəqələrinə gedərək öz iradələrini ifadə ediblər.

Bu, həm də onu göstərir ki, seçkilər azad, şəffaf və ədalətli şəkildə həyata keçirilib. Beynəlxalq və yerli təşkilatlar tərəfindən aparılan "exit-poll"ların seçkilərin ilkin nəticələri ilə üst-üstə düşməsi də bunu təsdiqləyir. Qeyd edək ki, ABŞ-nin "Oracle Advisory Group" təşkilatı, Sosioloji Tədqiqatlar Mərkəzi və "Rəy"

Monitorinq Mərkəzinin keçirdiyi "exit-poll"ların nəticələri cənab İlham Əliyevin böyük fərqlə seçicilərin səsini qazandığını elan etdi.

Qeyd edək ki, 7 fevral prezident seçkilərinə beynəlxalq səviyyədə də maraq kifayət qədər yüksək oldu. Təsadüfi deyil ki, 125 seçki dairəsi üzrə 6537 seçki məntəqəsində keçirilən seçkiləri 72 beynəlxalq təşkilat, 89 ölkədən 790 beynəlxalq müşahidəçi izləyib.

Ən önəmli və tarixi məqam isə seçkilərin ilk dəfə olaraq müstəqil Azərbaycanın öz ərazisi üzərində suverenliyini tam bərpa etməsi şəraitində keçirilməsi idi. Beləliklə, qalib xalq ərazi bütövlüyü və suverenliyi təmin olunmuş ölkənin vətəndaşı olaraq qalib Liderinə - şanlı Zəfərin müəllifinə səs verməklə Heydər Əliyev ideyalarına sədaqət, cənab İlham Əliyevə minnətdarlıq ifadə etdi.

**Qələbəni şərtləndirən amillər…**

Cənab İlham Əliyevin seçkilərdə növbəti dəfə inamlı qələbə qazanması Onun uğurlu siyasətinin nəticəsidir. Son 20 ilin mənzərəsi də göstərir ki, dövlət başçısı verdiyi bütün vədləri yüksək səviyyədə yerinə yetirdi. Ölkə iqtisadiyyatında və sosial sahədə misilsiz uğurlar qazanıldı.

Bu gün dünyada etibarlı tərəfdaş kimi tanınan Azərbaycan bir çox ölkələrlə, o cümlədən qonşularla müxtəlif platformalarda əməkdaşlıq əlaqələri quraraq mövcud münasibətlərini daha da möhkəmləndirir. Eləcə də Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, 120 dövlətin təmsil olunduğu Qoşulmama

Hərəkatına sədrlik etməsi, habelə COP29-un Bakıda keçirilməsi haqqında yekdil qərar qəbul edilməsi ölkəmizin dünya miqyasında artan nüfuzunun göstəricisidir.

Qazanılan uğurların zirvəsində, təbii ki, uzun müddət işğal altında qalmış torpaqlarımızın azad olunması dayanır. Öz Lideri ətrafında "dəmir yumruq" kimi birləşən xalq gücünü və qələbə əzmini bütün dünyaya nümayiş etdirdi. Prezident, Müzəffər Ali Baş Komandan bu Zəfərlə Azərbaycanı qalib ölkəyə, xalqı qalib xalqa çevirdi. Azərbaycanın qazandığı misilsiz uğurların təməlində də məhz xalq-iqtidar birliyi dayandı.

**Milli həmrəylik həlledici faktor kimi…**

Son 20 ildə Azərbaycanın keçdiyi yola nəzər saldıqda Prezident İlham Əliyevin daim xalqın arzu və istəkləri ilə üst-üstə düşən və reallıqla səsləşən təşəbbüslərlə çıxış etdiyinin şahidi oluruq. Ölkədə aparılan praqmatik siyasət, ilk növbədə, milli maraqların nəzərə alınması ilə şərtlənir. Dövlət başçısı mütəmadi qaydada ictimaiyyət nümayəndələri ilə görüşür, tez-tez bölgələrə səfərlərə gedir. Dövlət başçısı insanları narahat edən məsələlərlə yerindəcə tanış olur, həmçinin verilən tapşırıqların müvafiq qurumlar tərəfindən necə icra edildiyi ilə maraqlanır. Beləliklə, bir tərəfdən nəzarət möhkəmlənir, digər tərəfdən isə dövlət siyasətinin prioritetləri müəyyənləşdirilərkən yerlərdə insanların qaldırdıqları məsələlər mütləq nəzərə alınır.

Ümumiyyətlə, Prezident İlham Əliyev qurucu, birləşdirici Lider kimi qətiyyətlə reallaşdırdığı siyasətdə həmişə dövlətinin və xalqının maraqlarını ən ali məqsəd

kimi görüb və bütün qüvvəsini bu istiqamətdə səfərbər edib. Dövlətimizin başçısı Özünün "güclü dövlət" konsepsiyasını həyata keçirmək üçün, bir qayda olaraq, xalqa arxalanıb, xalqdan güc alıb və xalqına güc verib.
Öz növbəsində, müdrik Azərbaycan xalqı da həmişə dövlət başçımıza güvənib və bütün məsələlərdə Ona dəstək verib. Prezident İlham Əliyev xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi Liderdir. Azərbaycan xalqı dövlət başçımıza böyük inamını növbəti dəfə fevralın 7-də keçirilən prezident seçkilərində ifadə etdi və Azərbaycanı inamla idarə edən, ölkəmizə çoxsaylı uğurlar qazandıran cənab İlham Əliyevə səs verdi.

Beləliklə, seçkilərin nəticələrində Xalq-Lider birliyi müstəsna əhəmiyyət kəsb edir. Qeyd etdiyimiz kimi, bu birlik müstəqil dövlətimizin nailiyyətlərinin əsasını təşkil edir. Bu birlik xüsusilə 44 günlük Vətən müharibəsində öz təntənəsini parlaq şəkildə yaşadı. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin çağırışı ilə bütün xalq dəmir yumruq kimi birləşdi. Məhz Xalq-Lider-Ordu birliyi sayəsində qısa müddətdə torpaqlarımız işğaldan azad edildi. Heç bir qüvvə bu sarsılmaz birliyin qarşısında duruş gətirə bilmədi.

Təqdirəlayiq haldır ki, sözügedən birlik və həmrəylik siyasi müstəvidə də özünü ifadə edir. Belə ki, həm Vətən müharibəsində, həm də ondan sonrakı proseslərdə ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların mütləq əksəriyyəti birgə bəyanat verərək dövlət başçısının siyasətinə dəstək veriblər. Yeri gəlmişkən, artıq bir sıra siyasi partiyalar bəyanat verərək 7 fevral prezident

seçkilərində parlaq qələbə qazanması münasibətilə Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevi təbrik ediblər. Bu fakt siyasi mədəniyyət nümunəsi olmaqla yanaşı, ölkəmizdə siyasi konfiqurasiyanın, siyasi münasibətlərin inkişafının göstəricisidir.

Beləliklə, 7 fevral seçkiləri bir daha xalqın öz Liderinə sonsuz inamının ifadəsi idi. Bu, o anlama gəlir ki, Azərbaycan vətəndaşları öz talelərinə biganə deyillər, istəyirlər ki, şəhidlərimizin qanı hesabına qurulan müstəqil dövlətimizin sükanı həmişə etibarlı əllərdə olsun. Bu istək həm cəmiyyətin bütün təbəqələrinin, həm də ölkəmizdə yaşayan bütün xalqların arzusudur.

Prezident İlham Əliyevin son 20 ildə apardığı siyasət müxtəlif milli, dini mənsubiyyətə malik insanları ayıran yox, birləşdirən bir siyasət olub. Bu gün dünyanın ayrı-ayrı ölkələrindəki mənzərələrdən fərqli olaraq respublikamızda multikulturalizm kifayət qədər yüksək səviyyədədir, dövlət milli birliyin daha güclü şəkildə təmin olunmasına böyük önəm verir. Bütün bunların fonunda xalqımız 7 fevral seçkilərində böyük ruh yüksəkliyi ilə iştirak edərək öz Liderinə sarsılmaz inamını bir daha nümayiş etdirdi.

**Siyasi autsayderlərin provokasiya cəhdləri fiaskoya uğradı…**

Məlumdur ki, müstəqil Azərbaycanın inkişafını və güclənməsini istəməyən qüvvələr hər zaman olub. Müəyyən beynəlxalq dairələr, anti-azərbaycançı mərkəzlər dövlətimizi zəiflətmək, parçalamaq üçün həmişə müxtəlif “layihələr” reallaşdırmağa çalışıblar. Onlara öz içimizdə olanlar, yəni “sapı özümüzdən

baltalar" da dəstək veribıər. Daha doğrusu, həmin xarici dairələr belələrindən alət kimi istifadə ediblər və bu gün də istifadə etməkdədirlər. Hələ Ermənistanın 30 illik işğalçı siyasəti davam edən zaman sözügedən dairələr Azərbaycanı "demokratiya və insan haqları" ilə bağlı ittiham etməyə çalışırdı. Beynəlxalq cinayətlər törətmiş Ermənistana torpaqlarımızı işğal etməsinə baxmayaraq, təsir və təzyiq göstərilmir, amma ərazisinin 20 faizi işğal olunan, 1 milyona qədər vətəndaşı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş Azərbaycana qarşı isə bəzi beynəlxalq təşkilatlarda qərəzli qətnamələr qəbul olunurdu.

Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsindən sonra isə sözügedən dairələr daha da aqressivləşib. Müəyyən təşkilatlar və ölkələr beynəlxalq hüquq normalarını və ədalət prinsipini açıq-aşkar heçə sayaraq Azərbaycana qarşı "hücuma keçiblər". Bu, Vətən müharibəsindən sonra Fransa tərəfindən, eləcə də Avropa Parlamentində, Avropa Şurası Parlament Assambleyasında ölkəmizlə bağlı qəbul edilmiş qeyri-obyektiv sənədlərdə də özünü göstərir. Onların 7 fevral seçkiləri haqqında da beynəlxalq ictimaiyyətdə yanlış rəy formalaşdırmaq cəhdləri buradan qaynaqlanır. AŞPA-dakı müəyyən qüvvələrin, "Azadlıq" radiosunun, eləcə də ermənipərəst dairələrin əlində alət olan daxilimizdəki radikal qüvvələrin prezident seçkiləri ilə bağlı qərəzli mövqeyi heç bir fakta əsaslanmır. Əlbəttə ki, onların obyektivlikdən tamamilə uzaq olan yanaşmaları cəmiyyətimizdə heç bir dəstək qazanmır. Çünki Azərbaycan cəmiyyəti intellektual cəmiyyətdir və onun

hər hansı uydurma iddialara inandığını gözləmək sadəlövhlük olardı.

Azərbaycan xalqı kimin kim olduğunu çox yaxşı bilir. Bu səbəbdən də, xaricdəki dairələrin və daxilimizdəki radikalların bütün planları, təxribatları hər zaman iflasa uğrayıb. 7 fevral seçkiləri haqqında onların qara piar kampaniyası da iflasa məhkum oldu. Xalqın seçimi – öz Liderinə növbəti dəfə inam və etimad göstərməsi sabitlik adası olan Azərbaycanın inkişafından, xalq-Lider birliyindən, milli həmrəylikdən narahat olaraq ölkəmizə qarşı neqativ ssenarilər həyata keçirmək istəyən qərəzli dairələrə layiqli və tutarlı cavab oldu.

**Yeni hədəflərə doğru…**

Dövlət başçısı İlham Əliyev ötən ay yerli televiziyalara müsahibəsində suverenliyimizin bərpa olunmasını yeni dövrün başlanğıcı kimi səciyyələndirmişdi. Beləliklə, yeni mərhələdə qarşımızda yeni hədəflər dayanır. Bu hədəflərə çatmaq üçün 7 fevral prezident seçkilərinin nəticələri müstəsna əhəmiyyət kəsb edir. Azərbaycan xalqı seçkilərdə cənab İlham Əliyevə səs verməklə məhz Onun Liderliyi ilə yeni hədəflərə çatacağını təsdiqləmiş oldu.

Qarşıdakı əsas hədəflər sırasına regionumuzda sülhün təmin olunması, Azərbaycan iqtisadiyyatının daha da artırılması, milli təhlükəsizliyimizin və ordumuzun daha da gücləndirilməsi, əhalinin rifah səviyyəsinin daha da yüksəldilməsi, sosial sahənin bütün istiqamətləri üzrə tərəqqinin davam etdirilməsi, ölkəmizin beynəlxalq miqyasda mövqelərinin daha da gücləndirilməsi,

müəyyən qlobal layihələrin reallaşdırılması və s. məsələlər daxildir.

Təbii ki, hədəflərimiz sırasında işğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulması mühüm yer tutur. Böyük Qayıdışla bağlı I Dövlət Proqramına uyğun olaraq 2026-cıilədək 34500 ailənin doğma torpaqlarda layiqli yaşayışı gerçəkləşdiriləcək. Artıq cari ildə Şuşa, Xankəndi, Xocalı, Cəbrayıl və Kəlbəcər şəhərlərinə və bir sıra kəndlərə də qayıdış baş tutacaq.

Beləliklə, yeni mərhələdə - 7 fevral prezident seçkilərindən sonra qalib Azərbaycan xalqı qalib Lider İlham Əliyevin liderliyi ilə yeni zəfərlərə imza atacaq!

# Prezident İlham Əliyevin seçkilərdə parlaq qələbəsi xalqın öz liderinə sarsılmaz inamından qaynaqlanır

2024-cü il fevralın 7-də keçirilən prezident seçkilərində İlham Əliyev inamlı qələbə qazanaraq növbəti müddətə dövlət başçısı seçildi. Bu qələbə xalqın öz liderinə sarsılmaz inamından qaynaqlanmaqla, son iyirmi ildə görülən işlərə, qazanılan uğurlara verilən dəyərdir. Azərbaycan xalqı səsini İlham Əliyevə verməklə, Ümummilli Lider Heydər Əliyevin ideyalarına sədaqətini nümayiş etdirdi.

**Prezident seçkiləri Azərbaycanda yeni dövrün başlanğıcıdır**

Prezident seçkiləri bir dövrün yekunu, yeni bir dövrün başlanğıcı sayılır. Ötən ilin sentyabrında suverenliyimiz tam bərpa olundu, Qarabağ da separatçı rejimin mövcudluğuna birdəfəlik son qoyuldu. Bununla da Azərbaycan tarixinin çox mühüm dövrünə yekun vuruldu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev qüdrətli sərkərdəliyi, öz müdrik siyasəti ilə xəyal kimi görünən arzularımızı həqiqətə çevirdi. İndi isə yeni bir dövr başlayır, bu dövrün başlanğıcı məhz prezident seçkiləri ilə qoyulur.

Hər bir Azərbaycan vətəndaşı, dünyada yaşayan hər bir azərbaycanlı şanlı Qarabağ Zəfərinin sevincini yaşayır, haqlı qürur hissi keçirir. Azərbaycanın çoxəsrlik tarixində heç vaxt buna bənzər qələbə olmayıb. Xalqımız öz prezidenti ilə fəxr edir, ona qələbə sevinci yaşadan,

başucalığı gətirən liderinə böyük dəstək verir. Prezident seçkiləri bunun daha bir bariz təcəssümü oldu.

Digər diqqət çəkən məqam ondan ibarətdir ki, ilk dəfə olaraq bu seçkilər Azərbaycanın hər bir guşəsində, o cümlədən 30 illik işğaldan azad edilmiş torpaqlarımızda keçirildi.

Biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlamışıq. Müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən - uğurlu antiterror tədbirlərindən sonra başlayıb. Bir sutkadan da az çəkən bu tədbirlər Azərbaycan Ordusunun tam Zəfəri ilə nəticələndi. Separatçı rejim diz çökdü və ağ bayraq qaldıraraq təslim oldu.

Daha bir mühüm məqam Prezident İlham Əliyevin fəaliyyətinin 20 ilinin tamam olmasıdır. Seçkilər həm də bu misilsiz dövrün yekunu oldu və xalqın yüksək qiymətini aldı.

**Əsrə bərabər 20 ilin möhtəşəm uğurları**

2003-cü ildə - müstəqillik tariximizin ən həlledici məqamında Azərbaycan xalqı düzgün seçim edərək Ulu Öndərimizin layiqli varisi İlham Əliyevi prezident seçdi, bununla da Heydər Əliyev siyasətinin davam etdirilməsinə səs vermiş oldu. Əgər tarix başqa istiqamətdə getsəydi, bilmək olmazdı, xalqımız, dövlətimiz hansı təhlükələrlə üzləşəcəkdi. Bu, bir daha təsdiqləyir ki, güclü lider və düşünülmüş siyasət olmadan istənilən ölkənin, xüsusilə Azərbaycan kimi gənc müstəqil ölkənin özünü təsdiqləməsi, irəliləməsi və beynəlxalq aləmdə nüfuz qazanması mümkünsüzdür.

Xalq Prezident İlham Əliyevə inanır, öz taleyini ona etibar edir. Məhz bu inam sayəsində xalq-iqtidar birliyi həlledici amilə çevrilib.

Bugünkü Azərbaycan dünya miqyasında güclü ölkələr sırasındadır. Azərbaycan həm beynəlxalq aləmdə, həm regionda, eyni zamanda, daxili siyasət prioritetlərinin düzgün seçilməsində bir çox ölkələr üçün nümunə sayılır, özünəməxsus inkişaf modelləri ilə tanınır. Son 20 ilin mənzərəsi göstərir ki, həm siyasi və hərbi müstəvidə, həm də ölkəmizdə gedən proseslər baxımından sentyabra qədər getdiyimiz yol düzgün yoldur. Sözsüz ki, müdrik xalqımız bu yolun davam etməsini istəyir və 7 fevral seçkilərinin nəticəsi bunu əyani şəkildə təsdiqlədi. Bir sıra analitiklərin fikrincə, bu seçkilər həm də xalqın dövlət başçısına hörmət və minnətdarlığını ifadə etməsi üçün bir imkan oldu.

**Otuz illik işğala və ədalətsizliyə son qoyan Qələbə strategiyası**

Son 20 ilin tarixi göz qabağındadır. Biz hamımız bu dövrdə baş vermiş misilsiz inkişafın canlı şahidləriyik. Azərbaycanın haradan haraya gəlib çıxdığını öz gözlərimizlə görmüşük. Bu dövr ölkə iqtisadiyyatının dinamik inkişafı, insanların rifah halının durmadan yaxşılaşması, bütün sahələrdə köklü islahatlarla yadda qalıb.

İlham Əliyevin Azərbaycana Prezidentlik etdiyi 20 il ölkəmizin tarixinə yüksəliş dövrü kimi daxil olub. Prezident İlham Əliyev ötən 20 ildə verdiyi hər bir vədi yüksək səviyyədə yerinə yetirib.

Əsrə bərabər 20 ilin zirvəsində təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə əbədi yazıldı. Otuz ilə yaxın işğal altında qalmış torpaqlarımız 44 gün ərzində azad olundu. BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalmış qətnamələrini Azərbaycan özü icra etdi. Beləliklə, Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu Qələbə sayəsində regionda yeni reallıqlar yarandı.

Şanlı Vətən müharibəsi Prezident İlham Əliyevin daha bir liderlik keyfiyyətini – sərkərdəlik məharətini üzə çıxardı. Qələbəni şərtləndirən mühüm amillərdən biri də Azərbaycan Prezidentinin diplomatiya müstəvisində çevik siyasəti oldu. Müharibə dövründə dövlətimizin başçısı xarici KİV-ə otuzadək müsahibə verdi ki, bu da münaqişə və Qarabağla bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynadı.

2023-cü il sentyabrın 19-da rəşadətli Ordumuzun Qarabağda başlatdığı lokal xarakterli antiterror tədbirləri hərb tariximizə daha bir parlaq səhifə kimi yazıldı, qarşıya qoyulan hədəflərə 24 saatdan da az müddətdə nail olundu. Bu, eyni zamanda, Prezident İlham Əliyevin qətiyyətinin, siyasi iradəsinin müdrik qərarlarının məntiqi nəticəsi olmaqla, öz lideri ətrafında "dəmir yumruq" kimi birləşmiş xalqımızın gücünü və qələbə əzmini nümayiş etdirdi.

## Böyük Qayıdış yolunda böyük addımlar

Qurucu lider olan Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın reallaşması üçün inanılmaz qətiyyət və əzmkarlıq göstərir. Görülən bütün işlər Azərbaycan xalqının, Azərbaycan vətəndaşının daha xoş güzəranını qurmaq, sabahını daha firavan etmək məqsədi daşıyır.

İşğaldan azad olunmuş ərazilərdə həyat yenidən qayıdır: infrastruktur obyektləri ilə paralel olaraq, yaşayış kompleksləri, məktəb binaları tikilib istifadəyə verilir, yenilərinin təməli qoyulur. Bütün bunlar Böyük Qayıdışın geniş perspektivindən xəbər verir. Azad olunmuş ərazilərə qısa müddətdə 1360 ailə, yaxud 5 min 354 nəfər köçürülüb. Onlara prezident seçkilərində ilk dəfə olaraq doğma yurdda səs vermək xoşbəxtliyi nəsib olub.

Düşmənin darmadağın etdiyi şəhər və kəndlərin bərpası sürətlə davam etdirilir, Böyük Qayıdış yolunda böyük addımlar atılır. Azad olunmuş şəhər və kəndlərə yaxın üç ildə 140 min insanın köçürülməsi planlaşdırılır.

Nəhəng vəsait və qüvvə tələb edən bu işləri Azərbaycan kənardan bir manat belə almadan özü görür. Bu, həm də ölkəmizin ildən-ilə artan iqtisadi gücünün göstəricisidir.

**Azərbaycana siyasi-iqtisadi dividendlər qazandıran transmilli layihələr**

Azərbaycan ötən 20 ildə bir çox nəhəng transmilli layihələrə imza atıb. Onlardan bəzilərini xatırlamaq yerinə düşər.

2006-cı il iyulun 13-də Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin açılışı oldu və həmin il dekabrın 15-də

"Şahdəniz" yatağında ilk quyu istismara verildi. 2014-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin 20-ci ildönümündə Səngəçalda "Cənub Qaz Dəhlizi" layihəsinin təməli qoyuldu.

Prezident İlham Əliyevin gərgin və uğurlu fəaliyyəti, ardıcıl səyləri ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərindən sonra Bakı-Tbilisi-Ərzurum, TANAP, TAP kimi transmilli qaz arteriyaları yarandı. Bununla da dünya enerji xəritəsində yeni mənzərə formalaşdı.

2017-ci ildə Prezident İlham Əliyevin şəxsi səyləri nəticəsində Xəzər dənizinin Azərbaycan sektorundakı Azəri-Çıraq-Günəşli neft yataqları blokunun işlənilməsində yeni dövr başlandı, yəni "Əsrin müqaviləsi" 2050-ci ilədək uzadıldı. 2020-ci il dekabrın 31-də Cənub Qaz Dəhlizinin son seqmenti olan Trans-Adriatik boru kəmərinin istismara verilməsi ilə Azərbaycan qazının tarixdə ilk dəfə olaraq Avropaya ixracına başlanıldı.

Bütün bu irimiqyaslı neft-qaz layihələri ilə yanaşı, Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin və Ələt Azad İqtisadi Zonasının açılışı ilə Azərbaycan və Bakı regionun ən böyük ticarət və logistika habına, Şimal-Cənub, Şərq-Qərb və Orta Dəhliz nəqliyyat marşrutlarının mərkəzinə çevrildi.

Bu və digər layihələr ölkəmizə həm iqtisadi, həm də siyasi dividendlər qazandırmaqdadır.

**Misilsiz iqtisadi-sosial inkişaf**

Son iyirmi il ölkə iqtisadiyyatında və sosial sahədə qazanılan misilsiz uğurlarla da xarakterikdir. Həmin

dövrdə Azərbaycanın ümumi daxili məhsulu real ifadədə 3,6 dəfə artıb. Qeyri-neft sektoru üzrə ümumi daxili məhsulda 3,4 dəfə, dövlət büdcəsinin xərclərində isə 30 dəfə artım olub. 2003-cü ildə adambaşına düşən büdcə xərcləri 150 manat idisə, hazırda bu göstərici 3 min 500 manatı ötüb.

2003-cü illə müqayisədə 2022-ci ildə adambaşına düşən ümumi daxili məhsul 3 dəfəyə yaxın artaraq 13 min 256 manat təşkil edib. Azərbaycanın xarici valyuta ehtiyatları son 20 ildə 47 dəfədən çox artaraq 66 milyard ABŞ dollarını keçib.

Qeyri-neft sektorunun prioritet istiqamətlərindən olan kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsinin inkişafı da daim diqqət mərkəzində saxlanılıb. Görülən məqsədyönlü tədbirlər nəticəsində son 20 ildə 51 aqropark yaradılıb, qeyri-neft ixracı səkkiz dəfədən çox artıb.

Əhalinin sosial müdafiəsi, xüsusilə ən həssas kateqoriyadan olan insanların sosial təminat məsələləri Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Ötən 20 ildə sosial sahədə həyata keçirilən islahatlar və məqsədyönlü tədbirlər əhalinin sosial rifahının dayanıqlılığını təmin edib. 2003-cü ildə dövlət büdcəsindən sosial xərclərə 678,2 milyon manat ayrılmışdısa, 2022-ci ildə bu rəqəm 11,6 milyard manat olub. Həyata keçirilən sosialyönümlü siyasətin nəticəsi olaraq, orta aylıq əməkhaqqı 2003-cü ildəki 77,4 manatdan 900 manata, orta aylıq pensiya isə 25 manatdan 423 manata çatıb. Yaxud, ölkəmizdə yoxsulluq səviyyəsi 2003-cü ildəki 44,7 faizdən 5,5 faizə enib.

Əhalinin sosial müdafiəyə daha çox ehtiyac duyan hissəsi, o cümlədən əlillər, müharibə veteranları, aztəminatlı vətəndaşlar da daim dövlətin diqqət mərkəzində olub. Şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 14 mindən artıq mənzil və fərdi ev verilib.

**Ölkəmizə böyük nüfuz və dəstək qazandıran müstəqil xarici siyasət**

Prezident İlham Əliyevin siyasi bilikləri və təcrübəsi, diplomatiya elmini dərindən bilməsi ölkəmizin xarici siyasət kursunun uğurla həyata keçirilməsində mühüm rol oynayır. Ölkələrin bir-birinin suverenliyinə hörmət etmələrinin, əməkdaşlığı gücləndirməklə qarşılıqlı faydalı əlaqələrin qurulmasının vacibliyini bəyan edən Prezident İlham Əliyev xarici siyasət kursunu bu prinsiplər əsasında qurub.

Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə, suverenlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət və riayət edilməsi, həmçinin daxili işlərə qarışmama kimi prinsiplər əsasında əməkdaşlığa hazır olduğunu praktikada təsdiqləyib. Ölkəmiz ən ziddiyyətli beynəlxalq münasibətlər fonunda da bu xəttə sadiqliyini nümayiş etdirərək müstəqil xarici siyasət yürüdür. Məhz buna görə də dünya Azərbaycanın sözünü eşidir, Prezidentimizin irəli sürdüyü beynəlxalq və regional təşəbbüslərə dəstək verir.

Bu gün dünyada etibarlı tərəfdaş kimi tanınan Azərbaycan qonşu ölkələrlə müxtəlif platformalarda

əməkdaşlıq əlaqələri quraraq mövcud münasibətlərini daha da möhkəmləndirir.

Bu illər ərzində beynəlxalq qurumlarla da səmərəli əməkdaşlıq əlaqələri qurması ölkəmizin qlobal imicinin formalaşmasında müstəsna əhəmiyyət kəsb edir. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik etməsi ölkəmizin dünya miqyasındakı nüfuzunun göstəricisidir.

Ötən ilin dekabr ayında dünya ölkələri ən böyük beynəlxalq konfransın (COP29) Bakıda keçirilməsi haqqında yekdil qərar qəbul etdilər. Bu, Azərbaycana və onun liderinə dünya ictimaiyyəti tərəfindən göstərilən böyük hörmət və rəğbətin ifadəsi olmaqla, eyni zamanda, ölkəmizin yaşıl enerjiyə keçidinə verilən böyük qiymətdir.

Prezident seçkilərində İlham Əliyevə səs verən xalqımız əmindir ki, bu nailiyyətlərin davamı gələcək, yeni dövrdə qarşıda duran yeni vəzifələr də uğurla yerinə yetiriləcək (Azərbaycan Milli Elmlər Akademiyası).

# XXI əsrin milli lideri - İlham Əliyev



Prezident İlham Əliyev artıq 20 ildir ki, müstəqil Azərbaycan Respublikasına rəhbərlik edir. Ulu öndər Heydər Əliyevin siyasi kursunu inamla inkişaf etdirən dövlət başçısının fəaliyyəti çoxşaxəlidir.

Aparılan təhlillər göstərir ki, Azərbaycan Cənubi Qafqazda müstəqil dövlət kimi özünü uğurla təsdiq edən ölkədir. Bunun kökündə əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət quruculuğu konsepsiyası dayanır. İlham Əliyev XXI əsrin keşməkeşləri şəraitində həmin inkişaf kursunu yeni şərtlər daxilində səmərəli şəkildə davam etdirir. Bunun nəticəsidir ki, Azərbaycan hazırda Cənubi Qafqazın lider dövlətidir. Ekspertlərin qiymətləndirmələrinə görə, bu proses daha da inkişaf edəcək. Azərbaycan rəhbəri malik olduğu liderlik xüsusiyyətlərinə görə daim uğur gətirən addımlar atacaq.

Daxili və xarici siyasətdə həyata keçirdiyi proqramlar sayəsində müstəqil dövlətçiliyi yeni zirvələrə qovuşduracaq. Bunların fonunda isə İlham Əliyevin simasında yeni siyasi lider modelinin formalaşdığı aydın görünür. İlham Əliyev hazırda XXI əsrin milli liderliyinin uğurlu nümunəsidir.

İndiki tarixi mərhələdə hər bir siyasi liderin fəaliyyətini bütün dünya izləyə bilir. İnformasiya-kommunikasiya vasitələri elə inkişaf edib ki, dövlətə başçılıq edən şəxsin gördüyü işlər sürətlə hər yerə yayılır. Bu, bir tərəfdən, liderlərin göz önündə olmasını təmin edir. Digər tərəfdən, hər bir siyasətçinin fəaliyyətinə dünya miqyasında qiymət vermək işini asanlaşdırır. Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyəti haqqında dünyanın aparıcı dövlətlərinin rəhbərləri dəfələrlə fikir bildiriblər. Onların hamısı Azərbaycan Prezidentindən müdrik, uzaqgörən, əməkdaşlığa açıq və etibarlı, dövlət işlərini dərindən bilən və yüksək diplomatik bacarığa sahib lider kimi bəhs ediblər.

Əlbəttə, hər bir azərbaycanlı üçün ölkənin başçısına digər ölkələrin rəhbərlərinin yüksək qiymət verməsi qürur mənbəyidir. Həm də bu hörmətin arxasında İlham Əliyevin gərgin zəhmətinin, yüksək ailə, siyasətçi tərbiyəsinin, Vətənə böyük sevgisinin dayandığını anlamaq gərəkdir. Belə qiymətlər heç zaman asan verilmir - onu qazanmaq lazımdır, konkret əməldə layiq olduğunu göstərmək gərəkdir.

Azərbaycan xalqı öz Lideri ilə fəxr edir!

# Növbədənkənar Prezident seçkilərində göstərilən həmrəylik cəmiyyətimizi bir qaya kimi daha da möhkəmləndirdi



***Niyazi Bayramov,***
***Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı.***

7 fevral 2024-cü ildə keçirilmiş növbədənkənar Prezident seçkiləri Azərbaycan xalqının tarixinə Zəfər seçkisi kimi yazıldı. Bu dəfə keçirilən Prezident seçkilərinin əsas əlaməti və xüsusiyyəti onda idi ki, müstəqillik dövründə ilk dəfə seçkilər ölkəmizin bütün ərazilərində keçirildi. Bu seçkiləri önəmli edən digər bir hadisə isə ölkə rəhbərinin ailə üzvləri ilə birgə Xankəndidə səsvermədə iştirak etməsi idi. Bu, ölkə tarixində əbədi olaraq yadda qalacaq əlamətdar hadisə oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səs verdilər.

Azərbaycanda keçirilən növbədənkənar Prezident seçkiləri ölkə tarixində bir dövrə yekun vurdu. Möhtərəm Prezident cənab İlham Əliyev 2003-cü ildə ilk dəfə dövlət başçısı seçiləndə  Azərbaycan xalqını əmin etmişdi ki, qarşıda duran bütün vəzifələri icra edəcək. Bəli, möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa verdiyi sözə tam əməl etdi. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa edildi, üçrəngli bayrağımız Xankəndində, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər rayonlarda şərəflə dalğalandırıldı. Suverenliyimiz tam bərpa olundu.

Ümumiyytlə, ötən 20 illik tarixə nəzər saldıqda görürük ki, atılan bir addım belə situativ və avantüra xarakteri daşımayıb, mənasız olmayıb. Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olub. Sözsüz ki, əldə edilən uğurları şərtləndirən əsas amillərdən biri də Azərbaycan xalqının həmrəyliyidir. Bütün çətinliklərə və problemlərə rəğmən Azərbaycan xalqı bir yumruq kimi birləşərək inkişaf və tərəqqi yolu ilə uğurla addımlayır. İkinci Qarabağ müharibəsindəki parlaq Qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı böyük xalqdır.

Növbədənkənar Prezident seçkilərində göstərilən həmrəylik isə cəmiyyətimizi bir qaya kimi daha da möhkəmləndirdi.

Möhtərəm Prezident cənab İlham Əliyev fevral ayının 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimində etdiyi geniş nitqi ilə qarşıda duran hədəfləri, prioritetləri açıqladı, ölkəmiz üçün yeni dövrün başlandığını elan etdi. Dövlət başçımız vurğuladı ki, bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq: "Yeni dövrə böyük

ümidlərlə qədəm qoyuruq əlbəttə, elə işləməliyik, elə addımlar atmalıyıq ki, bu ümidlər çin olsun".

Növbəti illərdə qarşıda duran əsas vəzifələrdən biri Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin daha da gücləndirilməsidir. İkinci Qarabağ müharibəsindən sonra bu istiqamətdə çox böyük addımlar atılıb və bu gün Azərbaycan Ordusu 2020-ci ildəkindən daha güclüdür. Yeni dövrün əsas hədəflərindən biri də Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa işləri həyata keçirilir. Ermənilərin 30 il ərzində dağıtdığı ərazilər son üç ildə cənnətə çevrilir. Müasir tələblər səviyyəsində qurulan, bərpa edilən torpaqlarımızda həyat canlanır. Yeni reallıqlarla əlaqədar sərhədlərimizin təhlükəsizliyinin gücləndirilməsi, sərhəd infrastrukturunun yaradılması məsələləri də prioritet hesab edilir. Bu mənada cəmiyyətimizin xaricdən gələn ideoloji basqılara davamiyyətinin artırılması üçün ideoloji bütövlük və tamlıq, gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyə olunması mühüm əhəmiyyət kəsb edir.

Son 20 ilin uğurlarına və qarşıdakı dövrün hədəflərinə nəzər saldıqda, Azərbaycan xalqının xoşbəxt xalq olduğunu bir daha böyük inamla qeyd edirik. Azərbaycan hər dövrün çağırışlarını yüksək səviyyədə cavablandırmaqla yeni-yeni hədəflərə doğru inamla addımlayır.

Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik daxili islahatlar və uzaqgörən, məqsədyönlü xarici siyasət sayəsində Azərbaycan Cənubi Qafqazda lider dövlətə çevrilmişdir.

# Azərbaycan, yeni inkişaf, yüksəliş dövrünün qədəmləri xeyirli olsun!



***Bayram Aslanov,***
***YAP İdarə Heyətinin üzvü, YAP Gəncə şəhər təşkilatının sədri***

2003-cü ildən başlanan yolda zəfər dastanı yazmaqda davam edən Azərbaycan xalqı yeni dövrə alnı açıq, üzü ağ, başı dik addımlayır. Azərbaycanın tarixinə uğurlu dövr kimi həkk olunan 20 ildə Qalib Lider, Prezident, Müzəffər Ali Baş Komandanı İlham Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycan xalqı bütün dünyaya sübut etdi ki, ölkəmizdə xalqın və dövlətin maraqları hər zaman öndə gəlib. Bu illər ərzində ədalətə söykənən tariximizin zəfər səhifələri siyasi-diplomatik müstəvidə daha da möhkəmlənən etimadla, qarşıya qoyulan əsas hədəflərin yerinə yetirilməsi ilə zənginləşib.

Düşünülmüş islahatları və müdrik qərarları ilə həyatımıza yeni nəfəs gətirən Azərbaycan

Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Milli Məclisdə andiçmə mərasimində əlini Ali rəmzlərin -Konstitusiyanın və "Qurani-Şərif"in üzərinə qoyaraq and içərək, şərəfli, məsuliyyətli missiyasının yeni mərhələsinə başladı. Dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağına, xalqa ləyaqətlə xidmət edəcəyinə, xalqın əsrlər boyu yaratdığı milli mənəvi dəyərlərə və ənənələrə sadiq olacağına, onları daim uca tutacağına and içən müstəqil Azərbaycanın Qalib Lideri ilk növbədə, doğma Azərbaycan xalqına öz dərin təşəkkürünü bildirdi:"Əziz xalqımı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm".

2003-cü ildə andiçmə mərasimində böyük əminliklə verilən vədlər bugünümüzün reallıqlarında öz təsdiqini tapıb. Ərazi bütövlüyümüz tam bərpa edildi, güclü hərbi sənaye kompleksi yaradıldı.2003-cü ildə 7 milyard dollar olan ümumi daxili məhsulumuz keçən ilin yekunlarına görə 72 milyard dollara yüksəldi. 2003-cü ildə valyuta ehtiyatlarımız 1,6 milyard dollar idisə, bu gün bu, artıq 69,5 milyard dollardır. 20 il əvvəl 9 manat olan minimum əməkhaqqı 345 manata, 20 manat olan minimum pensiya bu gün 280 manata, orta əməkhaqqı 940 manata çatdırılıb. 20 ilin yüksəlişinin rəqəmlərdəki ifadəsi bir daha onu təsdiq edir ki, Azərbaycan tarixdə heç zaman Prezident cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdəki kimi qüdrətli, güvənli olmayıb. 20 il ərzində Ulu Öndər Heydər Əliyevin siyasi xəttinin davamçısı Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan

tək Cənubi Qafqazın deyil, Qərblə Şərqin qovuşuğunda yerləşən böyük bir bölgənin ən nüfuzlu dövlətlərindən birinə çevrildi. Ölkəmizdə həyata keçirilən siyasi və iqtisadi islahatlar, sosial-iqtisadi sahədə, eyni zamanda beynəlxalq əməkdaşlıq sahəsində əldə olunan uğurlar, Şanlı Ordumuzun parlaq qələbəsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi, parlaq gələcəyə hesablanmış addımlar deməyə əsas verir ki, Azərbaycanın taleyi etibarlı əllərdədir.

Ölkə Başçımız cənab İlham Əliyev ölkənin milli maraqlarını qoruya bilmək qabiliyyəti ilə özünün əsl siyasi lider olduğunu isbatladı. Qarşıdan gələn illərdə də Ümummilli Liderin şah əsəri olan müasir müstəqil Azərbaycanın tarixi daha da zənginləşdirəcək. Yeni dövrün başlanğıcında ölkəmiz daha da inkişaf edəcək və yeni hədəflərə, daha parlaq gələcəyə doğru mətin addımlarla irəliləyəcək.

Beləliklə, Azərbaycan üçün yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Prezident cənab İlham Əliyev fevralın 14-də Milli Məclisdə andiçmə mərasimindəki çıxışında qeyd etdiyi kimi: “Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək. Bu yolda hamımıza uğurlar, yolumuz açıq olsun!”

Tarixin ən qüdrətli dövrünü yaşayan Azərbaycan, yeni inkişaf, yüksəliş dövrünün qədəmləri xeyirli olsun!

# Uğurlarımızın əsas hərəkətverici qüvvəsi İlham Əliyev cənablarıdır



***Yusif Yusibov,***
***Gəncə Dövlət Universitetinin rektoru, Professor.***

İlham Əliyev cənabları 7 fevral 2024-cü il tarixdə keçirilən Prezident seçkilərində növbəti dəfə qalib oldu. Onun Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyət göstərdiyi 20 il ərzində görülən işlərin miqyası, mahiyyət və məzmunu ölçüyə gəlməzdir. Bu illər ərzində dövlətimizin qarşısında yeni strateji məqsədlər, bu məqsədlərin reallaşdırılması yolları, ölkənin dünya səviyyəsində inkişafı ilə bağlı iri miqyaslı proqramlar və onların həyata keçirilməsi üçün aydın xətt müəyyən edildi. Təbii ki, bu vəzifələri həyata keçirən və uğurlarımızın əsas hərəkətverici qüvvəsi İlham Əliyev cənablarıdır.

Azərbaycan xalqının iradəsini ifadə edən İlham Əliyev müstəqil Azərbaycanın prezidenti, həm də dünya azərbaycanlılarının lideridir.

Azərbaycanın yeni prezidenti İlham Əliyev bütün dünya tərəfindən qəbul olunan görkəmli və müasir dövlət xadimidir. O doğma Azərbaycanda böyük hörmətə və nüfuza malikdir. İndi Azərbaycan prezidentinin siyasi portreti bütün dünyada məşhurdur.

İlham Əliyev Prezident Heydər Əliyevin gənclər siyasətinin həyata keçirilməsində misilsiz fədakarlıq göstərmişdir və bu sahədə fəaliyyətini indi də uğurla davam etdirir. 1997-ci ildə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin prezidenti təyin olunan İlham Əliyev az vaxt içərisində həmin sahədə də yüksək təşkilatçılıq istedadına malik olduğunu göstərmişdir. Onun yorulmaz və gərgin əməyi sayəsində, qısa müddət ərzində, Azərbaycan idmanı ayağa qaldırılmış, dünya şöhrəti qazanmışdır. Azərbaycan idmançılarının beynəlxalq yarışlarda qazandığı parlaq uğurlar İlham Əliyevin başçılıq etdiyi idman hərəkatının, hər şeydən əvvəl, böyük siyasi qələbəsidir.

O, sürətlə dəyişən çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda Azərbaycanın mənafelərini bütün sahələrdə uğurla müdafiə edir. İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində də rolu və nüfuzu getdikcə artır.

Azərbaycanda ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, silahlı qüvvələrin hərbi hazırlıq

səviyyəsinin artırılması ilə bağlı görülən işlər Dağlıq Qarabağın Azərbaycandan qoparılması ilə bağlı bəzi dairələrdə yaranan əminliyi darmadağın etdi, xalqımızı ordumuzun etibarına inandırdı. Azərbaycanda güclü müdafiə sənayesi quruldu. Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycanın Müzəffər Ordusu 30 illik işğala son qoydu. Beləliklə, düşmənin illərlə yaratdığı "məğlubedilməz ordu" mifi 44 gün ərzində bütün dünyanın gözü qarşısında fiaskoya uğradı, Ermənistan ordusu darmadağın edildi və "Dəmir yumruq" əməliyyatı Azərbaycanın Şanlı Qələbəsi ilə başa çatdı. Geniş dünyagörüşünə, dərin və hərtərəfli biliyə, yüksək mədəniyyətə malik olan Ali Baş Komandan İlham Əliyev müharibə dövründə onlarla müsahibələr vermiş, bəzi ermənipərəst jurnalistlərin təxribat dolu suallarına; tarixi faktlar və dəlillərlə cavablandırmışdır. Azərbaycanda və onun hüdudlarından kənarda Prezident İlham Əliyev Qalib ölkənin Müzəffər Ali Baş Komandanı kimi böyük nüfuz sahibidir.

Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik daxili islahatlar və uzaqgörən, məqsədyönlü xarici siyasət sayəsində Azərbaycan Cənubi Qafqazda lider dövlətə çevrilmişdir. Prezident İlham Əliyev praqmatik siyasətçidir, hadisələri, prosesləri dəqiq qiymətləndirir, mühüm məsələlərin elmi cəhətdən əsaslandırılmış həlli yollarını təqdim edir, verdiyi bütün vədləri gerçəkləşdirir. O, Azərbaycanın tərəqqisini təmin edən strateji inkişaf paradiqmalarını dəqiq müəyyən edib. İlk növbədə, inkişafın milli - Azərbaycan modelinin formalaşdırılması,

yeni keyfiyyət çalarları ilə zənginləşdirilməsi mühüm məqsəd və vəzifə kimi təsbit olunub, bu hədəfə çatmaq üçün həyata keçirilən məqsədyönlü tədbirlər səmərəli nəticələr verib. Bir sözlə, Prezident İlham Əliyev inkişafın milli modelini yaratmaqla Azərbaycan iqtisadiyyatının dayanıqlılığını təmin edib, ölkəmiz qarşısında yeni perspektivlər açılıb. Statistik göstəricilər də bu reallığı təsdiq edir.

Ölkədə qeyri-neft sektorunun inkişafı neft siyasətinin məntiqi davamı oldu. Güclü iqtisadiyyatın hər bir ölkənin inkişafında mühüm amil olduğunu bəyan edən Prezident İlham Əliyev ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı tədbirlər gördü. Nəhəng infrastruktur layihələrinin, Olimpiya İdman komplekslərinin inşası gənc nəslin sağlamlığının qorunmasına mühüm töhfələr verdi. Yüzlərlə səhiyyə ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafını göstərdi. Ölkədə minlərlə məktəb tikildi, təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirildi. Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin etdi. Bütün bunların təməlində isə uğurlu enerji siyasəti dayandı.

Prezident İlham Əliyev cənabları elm, təhsil sahəsinə hər zaman diqqət və qayğı göstərib. Bu gün dövlət büdcəsindən təhsil sahəsinə ayrılan maliyyə vəsaiti hərbi sahədən sonra ikinci yerdədir. Bunun da nəticəsində respublikamızda elm, təhsil sürətlə inkişaf etməkdədir. Ölkəmizin təhsil sistemi MDB məkanında ən irəlidə gedən təhsil sistemidir. Əminliklə deyə bilərik ki,

təhsilimizin dünya təhsil sisteminə inteqrasiyası üçün lazımi şərait yaradılıb. Dövlət başçısının diqqət və qayğısı ölkəmizdə milli kadr potensialının kəmiyyət və keyfiyyət baxımından yetişdirilməsi və təkmilləşdirilməsi işinə mühüm töhfələr verir. Dövlət başçısının yüksək diqqəti və məqsədyönlü göstərişləri əsasında atılan addımlar, icra edilən dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin əldə edilməsinə, yüksək nəticələrin qazanılmasına xidmət edir. Bu da ölkəmizdə milli kadr potensialının kəmiyyət və keyfiyyət baxımından yetişdirilməsi və təkmilləşdirilməsi işinə mühüm töhfələr verir.

# Zəfər seçkilərindən yeni hədəflərə doğru



***Zəfər Qurbanov,***
***Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru,***
***Texnika elmləri namizədi, dosent, "Tərəqqi" medallı***

7 fevral 2024-cü ildə keçirilən prezident seçkiləri ölkəmizin bütün suveren ərazilərini əhatə etməsi baxımından müstəsna əhəmiyyət kəsb etdi. Qədirbilən xalqımız öz vicdan və vətəndaşlıq borcunu yerinə yetirmək üçün böyük sevinc hissi ilə seçki məntəqələrinə axışdı. Qalib Xalqımız Qalib Liderini yenidən öz rəhbəri seçdi. 3 il əvvəl Vətən müharibəsi dövründə dünyaya nümayiş etdirilən milli həmrəylik və birlik 7 fevral tarixində də respublikamızın bütün ərazisində yaradılmış seçki məntəqələrində bir daha təkrarlandı. Seçici aktivliyinin yüksək olmasını hətta seçkiləri izləmək üçün ölkəmizə akreditə olunmuş beynəlxalq müşahidəçilər də etiraf etdilər: tam ədalətli, şəffaf şəkildə keçirilən seçkilər dünya demokratiyası üçün də bir örnək oldu. Seçkilərin bu cür uğurlu alınması Xalq-Lider birliyinin, Xalqın Liderinə sevgisinin və sədaqətinin təsdiqi, həm də gələcəyinə inam və əminlik mesajı idi.

Seçkidən əvvəl xüsusilə Avropada ölkəmizə qarşı qarayaxma kampaniyası aparan ermənipərəst avroparlamentarilərə cənab Prezident məhz Xankəndidə səs verməklə tutarlı cavab verdi. Bu gün lidersizlik problem yaşayan Avropa rəsmiləri də xalqımızın bu coşqusu qarşısında aciz qaldılar. Bu gün dünyanın əksər ölkələrindən Qalib Prezidentə təbriklər gəlir, xoş sözlər səslənir.

Bu seçkilər həm də dövlət başçımızın 20 illik prezidentliyi dövrünün yekunu, yeni dövrün başlanğıcı üçün xüsusi önəm daşıyırdı. Prezident İlham Əliyev 20 illik siyasi fəaliyyəti dövründə xalqımızı adım-addım böyük Qələbəyə doğru gətirdi. Düşünülmüş iqtisadi siyasət, beynəlxalq qurumlar və aparıcı siyasi aktorlarla qurulmuş praqmatik və səmərəli əlaqələr nəticəsində Azərbaycan dünya siyasət meydanında öz sözünü deyə bilən ölkəyə çevrildi. Prezident İlham Əliyev ölkəmizə regionun lideri, etibarlı tərəfdaş, tranzit və tolerant ölkə imici qazandırdı.

"İqtisadi olaraq müstəqil olmayan dövlət siyasi olaraq müstəqil ola bilməz" prizmasından hərəkət edən dövlət başçısı xüsusilə enerji layihələrindən əldə olunan gəlirləri hərbi-strateji hədəflərə, əhalinin sosial-rifah halının yüksəltməsinə yönəltdi. Bütün bunlar Azərbaycanın müstəqil siyasət həyata keçirməsinə geniş imkanlar yaratdı.

Bu gün Azərbaycanın həyata keçirdiyi uğurlu siyasət onu dünya siyasətində əhəmiyyətli aktora çevirib. Qoşulmama Hərəkatına iki dövr üzrə uğurlu sədrlik və BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi

fəaliyyətimiz beynəlxalq müstəvidə mövqelərimizi daha da möhkəmləndirdi. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsinə dair qəbul edilmiş qərar isə Azərbaycana növbəti etimadın bariz göstəricisidir. Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrdə qazandığımız bütün bu nailiyyətlər Azərbaycanın öz inkişafının zirvəsində olduğunu bir daha təsdiq edir.

Öz ərazi bütövlüyünü və suverenliyini bərpa edən Azərbaycanımızın son 200 illik tarixinə Qalib Sərkərdə kimi adını yazdıran Ali Baş Komandan keçmiş qaçqın və məcburi köçkünlərimizin yurd, torpaq həsrətinə son qoydu. Bu gün xalqımız dövlət başçımızın rəhbərliyi altında Qarabağı və Şərqi Zəngəzuru dirçəltməklə, bu torpaqlara yenidən həyata verməklə məşğuldur.

Seçkidən öncə Azərbaycan mediasına verdiyi müsahibəsində seçkilərin növbədənkənar keçirilməsini çox aydın şəkildə şərh edən cənab Prezident ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etdikdən sonra Azərbaycanın yeni dövrə qədəm qoyduğunu açıq şəkildə elan etdi. Yeni dövrün əsas hədəfi qalib ölkənin qalib vətəndaşı, onun sosial rifahının daha da yaxşılaşdırılması, dövlətimizin yeni dövrün çağırışlarına cavab verməsi, yenidən dizayn edilən dünyada mövqelərimizin daha da möhkəmləndirilməsi, regionda qalıcı və davamlı sülhün bərqərar edilməsi, əməkdaşlıq platformasının yaradılmasıdır.

Yeni dövrün yeni çağışları hər bir azərbaycanlının qarşısında yeni hədəflər və vəzifələr qoyur. Qüdrətli və güclü Azərbaycan quruculuğunda hər birimiz səfərbər olmalı, yeni dövrün yeni ideya və məramının müəyyənləşdirilməsi üçün ictimai-elmi müzakirələr aparmalı, cənab Prezidentin açdığı yolda yeni uğurlara və həfəflərə doğru inamla addımlamalı, üzərimizə düşən vəzifələri vicdanla yerinə yetirməliyik.

# Ölkə Prezidenti cənab İlham Əliyevin siyasət kursu bütün uğurlarımızın əsasında durur



***İbrahim Cəfərov,***

***AMEA-nın müxbir üzvü, professor, Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun direktoru***

2003-cü ildən bəri keçən dövr Azərbaycanda bütün sahələrdə dinamik inkişafın təşəkkül tapması, ölkəmizin bölgədə və dünyada mövqelərinin güclənməsi ilə xarakterizə oluna bilər. 2004-cü ildən başlayaraq iqtisadiyyatda əldə olunan yüksək artımın ardıcıl olaraq təkrarlanması artıq o zaman həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda inkişafın Azərbaycan modeli haqqında iddiaların səslənməsinə səbəb oldu. Eyni göstəricilərin növbəti illərdə təkrarlanması isə inkişafın yeni bir möcüzəsi olan Azərbaycan modelinin qəti şəkildə qərarlaşdığını sübuta yetirdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2010-cu il mart ayının 12-də ölkə regionlarının sosial - iqtisadi inkişafı proqramının həyata keçirilməsinə

həsr olunmuş müşavirədə qeyd etmişdir: "Uğurlarımızın təməlində ciddi islahatlar dayanır. Azərbaycanın zəngin neft-qaz potensialı vardır və biz bu potensialdan böyük səmərə ilə istifadə edirik. Bununla bərabər aparılan islahatlar bugünkü sürətli inkişafı təmin edir." Həqiqətən də ötən dövr ərzində Azərbaycanın Regionlarının İqtisadi İnkişafına dair qəbul olunmuş Dövlət Proqramları çərçivəsində həyata keçirilən fəaliyyət sayəsində uğurlu nəticələr əldə olunub. İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun ümumi daxili məhsul istehsalında xüsusi çəkisinin artması, sahibkarlara yüksək dövlət qayğısı, regionların proporsional inkişafı, aparılan səmərəli islahatlar və bu qəbildən olan digər amillər Azərbaycanda qazanılan uğurların miqyasının genişlənməsinə misilsiz töhfələr verib. Digər tərədən də, iqtisadiyyatda qabaqcıl texnologiyaların tətbiqi, yüksək ixtisaslı kadr hazırlığına yetirilən diqqət, enerji resurslarından digər sahələrin inkişafı üçün istifadə olunması Azərbaycanın bundan sonra da sosial-iqtisadi tərəqqidə yeni möhtəşəm nailiyyətlərə imza atacağından xəbər verir. Bu, həm də Azərbaycanın iqtisadi siyasətinin nə dərəcədə dövrün tələblərinə cavab verməsinin bariz göstəricisidir. Azərbaycan bu illər ərzində özünün keyfiyyətcə yeni iqtisadi modelini formalaşdıraraq Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrini genişləndirdi, Qafqaz nəqliyyat dəhlizinin inkişafı ilə yanaşı, nəhəng layihələrin gerçəkləşməsində mühüm rol oynadı. Bu gün isə Azərbaycan iqtisadi baxımdan tam müstəqil bir siyasət həyata keçirir. Birmənalı olaraq deyə bilərik ki, Azərbaycan özünün iqtisadi təhlükəsizliyini,

ərzaq təhlükəsizliyini, enerji təhlükəsizliyini təmin edən ölkələr sırasındadır.

Ölkə Prezidenti cənab İlham Əliyevin davamlı olaraq həyata keçirdiyi son dərəcə uğurlu xarici siyasəti nəticəsində Azərbaycan dünya arenasında sabit və güclü mövqeyə malik bir dövlət olaraq qəbul olundu. Təkcə 2019-cu ildə respublikamızda keçirilən çoxsaylı beynəlxalq tədbirlər, dünyanın bir çox tanınmış dövlət və hökumət başçılarının Azərbaycana, eləcə də dövlətimizin başçısının xarici ölkələrə rəsmi və işgüzar səfərləri bu mövqeyin getdikcə möhkəmləndiyini bir daha təsdiq etdi. Ölkə Prezidenti cənab İlham Əliyevin apardığı xarici siyasət kursu Azərbaycanın milli maraqlarına xidmət etməklə, müstəqil fəaliyyəti, müstəqil xətti özündə əks etdirir və bütün uğurlarımızın əsasında durur. Məhz elə bu müstəqillik də Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsində ən vacib amillərdən biri oldu.

Xüsusi olaraq vurğulamaq lazımdır ki, dövlət başçımızın bütün bu illər ərzində yürütdüyü daxili və xarici siyasəti ilk növbədə həm də Dağlıq Qarabağ probleminin həllinə yönəlmişdi. Bu baxımdan Ölkə Prezidenti cənab İlham Əliyevin hər zaman şəxsən xüsusi diqqət mərkəzində saxladığı ordu quruculuğu məsələsi sözsüz ki, müstəsna önəm kəsb edir. Ölkənin iqtisadi qüdrəti güclü ordu quruculuğu üçün zəruri əlverişli şərait yaratdı. Qeyd etmək lazımdır ki, 1993-cü ildə Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş ordu quruculuğu işi sonrakı illərdə Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilmişdir. Məhz dövlət başçımızın ciddi səyləri

nəticəsində Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutmuşdur. Ordumuz ən müasir silah və sursatlarla, zirehli texnikalarla, zenit-raket qurğuları, hərbi hava qüvvələri və digər yüksək texnoloji vasitələrlə təchiz olunmuşdur. Bütün bunlar Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğının nəticəsində mümkün oldu. Şanlı Azərbaycan Ordusunun gücünə, yüksək döyüş qabiliyyətinə 44 gün davam edən Vətən müharibəsinin gedişi zamanı bütün dünya şahid oldu. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev hər zaman öz çıxışlarında ölkəmizin ərazi bütövlüynün bərpa edilməsində, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ordunun üzərinə mühüm vəzifələr düşdüyünü bildirirdi. Dəfələrlə qeyd olunduğu kimi, hətta ən mötəbər beynəlxalq təşkilatların, nüfuzlu dövlətlərin əks fikirlərinə rəğmən Ali Baş Komandan cənab İlham Əliyev hər zaman deyirdi ki, münaqişənin hərbi yolla həlli variantı var və lazım gələrsə Azərbaycan bu yoldan istifadə etmək hüququnu özündə saxlayır. Sonda Azərbaycan məhz bu hüququndan istifadə etdi. 2020-ci il sentyabrın 27-də cəbhədə törədilən növbəti erməni təxribatından sonra Ali Baş Komandanımızın əmri ilə şanlı Azərbaycan Ordusu işğal olunmuş torpaqlarımızın azad edilməsi məqsədilə hərbi əməliyyatlara başladı. Cəmi 44 gün ərzində ermənilər 5 ilə işğal etdikləri və 30 il ərzində möhkəmləndikləri torpaqlardan qovulub çıxarıldılar. Artıq noyabr ayının

10-da Paşinyan faktiki olaraq Ermənistanın kapitulyasiya aktı olan üçtərəfli bəyanatı imzalamaq məcburiyyətində qaldı. Şanlı Azərbaycan Ordusu bu müharibədə Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında tarixi qələbə qazandı! Bununla da təcavüzkar erməni separatizmi öz layiqli cəzasını aldı və tarixi ədalət bərpa olundu.

Bu gün biz hamımız Azərbaycanın tarixində tamamilə yeni bir dövrün başlandığının şahidiyik. Əminliklə demək olar ki, bu dövr artıq işğaldan azad olunmuş torpaqlarımız da daxil olmaqla bütün ölkədə möhtəşəm quruculuq işləri və daha yüksək dinamikaya malik inkişafla səciyyələnəcək. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımız bundan sonra daha böyük qələbələrə imza ataraq doğma Azərbaycanımızı dünyünün ən güclü və inkişaf etmiş ölkələri sırasına çıxaracaq!

# Yeni zirvələri məhz İlham Əliyevin Liderliyi ilə fəth edə bilərik



*Pərvin Kərimzadə, Millət vəkili*

Ölkəmizin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayan 2024-cü ilin 7 fevral seçkiləri müdrik xalqımızın taleyüklü məsələdə, ulu öndər Heydər Əliyevin layiqli varisi İlham Əliyevə yenidən etimad göstərərək Prezident seçməkdə yanılmadığını təsdiq etdi. Ölkə vətəndaşları, həmçinin milli maraqlara söykənən praqmatik və düşünülmüş siyasət nəticəsində ölkədə bərqərar olmuş ictimai-siyasi sabitliyə, dayanıqlı və dinamik inkişafa, xalq-iqtidar birliyinə növbəti dəfə səs vermiş oldular.

İlham Əliyevin hakimiyyətdə olduğu 20 il dərin iqtisadi islahatlar illəri oldu və bu gün biz islahatların nəticələrinin bəhrəsini bütün sahələrdə görürük. Dünyada mürəkkəb proseslərin cərəyan etdiyi bir dövrdə iqtisadiyyatımızın dayanıqlığı təmin olundu, qeyri-neft

ixracının stimullaşdırılması, aqrar sahəyə dövlət dəstəyinin artırılması istiqamətində ciddi addımlar atıldı. Bütün istiqamətlər üzrə yeni-yeni nailiyyətlər qazanıldı. Sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində vətəndaşların mənafeyinə xidmət edən islahatların dərinləşdirilməsi prioritet istiqamətlərdən oldu.

Minimum əməkhaqlarının, əmək pensiyalarının, bütün növ sosial müavinətlərin, təqaüdlərin əhəmiyyətli dərəcədə artırılması, xarici valyutada götürülmüş kreditlərin devalvasiya nəticəsində artan hissəsinin ödənilməsi barədə qərarın qəbul edilməsi 2003-cü ildən yeni vüsət alan müstəqil dövlət quruculuğu istiqamətində qazanılan nailiyyətlər nəticəsində mümkün olub.

Andiçmə mərasimində Prezident İlham Əliyev ciddi islahatlar aparılacağını, islahatları dərinləşdirəcəyini, vətəndaşlarımızın yaşayış səviyyəsinin daha da yaxşılaşdırılmasına yönələn addımların atılmasını vəd etdi. Hər zaman sözü ilə əməli bir olan, xalqına arxalanan və siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanan dövlət başçısı bu dəfə də vədini yerinə yetirəcəkdir. Sosial inqilab xarakterli qərarlar, fərman və sərəncamlar əhalinin bütün təbəqələrini əhatə edir. Ötən illərdə də Prezident İlham Əliyevin daim xalqla bir olduğunun, hər bir vətəndaşa xüsusi diqqət və həssaslıqla yanaşdığının şahidi olmuşuq. Məhz, bunun üçün də müdrik və uzaqgörən Azərbaycan xalqı öz Prezidentinin humanizm prinsiplərinə söykənən sosialyönümlü siyasətini birmənalı olaraq dəstəkləyir və hər zaman dövlət başçısının yanında olduğunu bildirir.

Ölkəmizdə xalq-iqtidar birliyi hökm sürür. Xalq Prezident İlham Əliyevin yorulmadan dövlətçiliyin möhkəmləndirilməsi, xalqın firavan həyat şəraitinin inkişaf etdirilməsi naminə apardığı inqilabi islahatları, daxili və xarici siyasəti yüksək qiymətləndirir. Bütün bunlar dünyanı bürüyən mürəkkəb və ziddiyyətli proseslər dövründə ölkəmizin siyasi sabitliyinin, iqtisadi inkişafının, sosial rifahının yeganə qarantının Prezident İlham Əliyev olduğunu təsdiq edir.

Ümumiyyətlə, seçkilər demokratik dövlətlərin, xalqların inkişaf tarixində çox mühüm rola malikdir. Seçkilər həm əvvəlki dövrün hesabatının aparılması, əldə olunan nəticələrin təhlil edilməsi baxımından əhəmiyyətlidir, həm də dövlətin qarşıdakı dövrdə inkişaf paradiqmalarının müəyyənləşdirilməsində böyük önəm kəsb edir. Bu baxımdan, Azərbaycanda fevralın 7-də keçirilən prezident seçkilərinin ölkəmizin demokratik inkişafı yolunda növbəti parlaq səhifədir.

Azərbaycan dövləti tərəfindən bu seçkilərin beynəlxalq standartlara uyğun demokratik şəraitdə keçirilməsi üçün lazımi şərait yaradılmışdı. Seçkilərə ictimai maraq yüksək səviyyədə idi. Hər bir namizəd üçün azad rəqabət şəraiti təmin olunmuşdu. Seçki prosesləri tam qanunvericiliyə uyğun həyata keçirilirdi. Ümumiyyətlə, Azərbaycan seçkilərin demokratik təşkili sahəsində zəngin təcrübəyə, mütərəqqi və beynəlxalq standartlara cavab verən təkmil qanunvericilik bazasına malikdir.

Əminliklə deyə bilərik ki, partiyamızın prezident seçkilərində cənab İlham Əliyevin namizədliyini irəli sürməsi xalqımızın istək və arzularından irəli gəlir. Biz təbliğat və təşviqat kampaniyası dövründə insanlarla

görüşür, onların rəylərini, fikirlərini öyrənirdik. Bundan əvvəl də ictimaiyyətlə görüşlərdə müşahidə etdiklərimiz, cəmiyyətin əhval-ruhiyyəsi açıq şəkildə göstərirdi ki, ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının bu qərarı Azərbaycan seçicilərinin mütləq əksəriyyətinin mövqeyini və iradəsini ifadə edir. Vətəndaşlarımızın Prezident İlham Əliyevlə bağlı söylədikləri xoş sözlər bir daha partiyamızın qərarının nə qədər yerində və obyektiv olduğunu sübuta yetirir.

Azərbaycanın inkişafının təməlində Heydər Əliyev siyasəti dayanır. Məhz Ulu Öndər Heydər Əliyev Azərbaycanı məhv olmaq təhlükəsindən xilas edərək müstəqlliyimizin dönməzliyini təmin etdi və ölkəmizi inkişaf yoluna çıxardı. Bütövlükdə, Ulu Öndərin dövlətimiz və xalqımız qarşısında xidmətləri misilsizdir. Azərbaycan xalqı bu xidmətlərinə görə Heydər Əliyevə əbədi olaraq minnətdardır və Onun müəyyənləşdirdiyi yola sadiqdir. 2003-cü ildə keçirilən prezident seçkilərində xalqımızın Heydər Əliyev siyasətinin layiqli davamçısı cənab İlham Əliyevə etimad göstərməsi məhz bu reallığın bariz göstəricisidir.

Bu gün hər bir vətəndaş dərk edir ki, Azərbaycanın əzəmətli inkişafı birbaşa Prezident, YAP-ın sədri İlham Əliyevin adı və həyata keçirdiyi düzgün siyasətlə bağlıdır. Çünki dövlət başçısı İlham Əliyev ötən müddət ərzində öz fəaliyyəti ilə hər bir azərbaycanlının Prezidenti olduğunu təsdiq edib. Son 20 il ərzində Azərbaycan böyük və şərəfli inkişaf yolu keçib, möhtəşəm tarixi nailiyyətlər qazanıb. Dövlətimizin qüdrəti artıb, ölkənin siması bütünlüklə dəyişib, insanların rifahı yaxşılaşıb. Prezident İlham Əliyevin

xalqa verdiyi bütün vədlər real həyatda öz əksini tapıb. Bu müddətdə Azərbaycan dünyada ən sürətli iqtisadi inkişaf tempinə malik olan, vətəndaşların sosial problemlərini həll edən, insanların həyat standartlarının sürətlə yüksəldiyi bir dövlət kimi böyük nüfuz qazanıb. 2003-cü ildən inkişafın yeni mərhələsinə qədəm qoyan Azərbaycanın ötən 20 illik şanlı və zəngin tarixi bizim üçün qürur mənbəyidir.

Ali Baş Komandanın uzaqgörən, prinsipial və milli maraqlara əsaslanan siyasəti nəticəsində dövlətimiz və xalqımız qarşıya qoyduğu ən müqəddəs vəzifənin yerinə yetirilməsinə, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edilməsinə nail olub. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, qəhrəman ordumuzun gücü və xalqın birliyi ilə Zəfərlə sona çatdı. O zaman İkinci Qarabağ müharibəsi nəticəsində biz işğala son qoyduq. 2023-cü il aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulması tarixi zərurətdən irəli gəlib. Həmçinin ötən il sentyabrın 20-də şanlı ordumuz Qarabağda lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyini tam təmin etdi. Beləliklə, Azərbaycan Prezident İlham Əliyevin Liderliyi ilə ərazi bütövlüyünə və suverenliyinə qovuşdu, xalqımızı dünyada mübariz, döyüşkən və müzəffər xalq kimi tanındı. Eyni zamanda, şəhidlərimizin qanı yerdə qalmadı, onların qisası alındı.

Hazırda işğaldan azad olunmuş ərazilərimizin bərpası istiqamətində möhtəşəm işlər həyata keçirilir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük dövlət xadimi

və Azərbaycan xalqının Lideri kimi hazırda əsas missiyası düşmənin viran qoyduğu işğaldan azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, öz yurd-yuvalarından didərgin düşən soydaşlarımızın doğma yurda qaytarılmasıdır. Tarixi Zəfərlər nəticəsində yaradılmış yeni reallıqlar Qarabağın və Şərqi Zəngəzurun bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının tezliklə reallaşacağını deməyə əsas verir. Bütün bunlara görə insanlar prezident seçkilərində cənab İlham Əliyevin namizədliyini məhz bu reallıqları dərk edərək, həmçinin digər tarixi nailiyyətlər fonunda dəyərləndirirlər.

Əlbəttə, inkişaf davamlı bir prosesdir və zaman dəyişdikcə, qarşıya yeni vəzifələr, yeni hədəflər çıxır. Azərbaycanın da gələcək perspektivdə yeni və daha möhtəşəm hədəfləri, çox böyük planları var. Bu hədəflər dövlətimizi daha güclü etməklə inkişafın yeni mərhələsinə çatdırmaq, insanların rifahını daha da yüksəltmək və beləliklə, Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri sırasında yer almasını təmin etməkdən ibarətdir. Bu əzəmətli zirvələri isə xalqın etimadını doğrultmuş, milli maraqları və dövlət mənafeyini cəsarətlə qoruyan bir Liderlə fəth etmək olar. O Lider isə, şübhəsiz ki, cənab İlham Əliyevdir.

Dövlət başçısının dediyi kimi, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası müasir tariximizdə yeni dövrün başlanğıcıdır. Yeni dövrdə yeni hədəflərimiz var. Bu hədəflərə məhz qalib xalqın qalib Lideri İlham Əliyevin rəhbərliyi ilə çatmaq mümkündür. Biz inanırıq ki, Azərbaycan xalqı növbəti dəfə cənab İlham Əliyevi dəstəkləyərək, ölkəmizin daha da güclənməsinə səs verdi.

Bununla həm də xalqımızın, dövlətimizin daha parlaq gələcəyinə səs vermiş olduq.

Cənab İlham Əliyevi dəstəkləmək möhtəşəm nailiyyətlərin davamlı olmasına, iqtisadiyyatımızın daha da inkişafına, növbəti Qələbələrimizə səs vermək deməkdir.

# 7 fevral dərsləri - El gücü, sel gücü



***Musa Urud, millət vəkili***

Daha bir şərəfli tarixi dövr arxada qaldı. 7 fevralda Azərbaycan xalqı ərazu bütövlüyü və suverenliyi tam təmin olunmuş müstəqil dövlətinin ilk Prezident seçkilərini keçirdi. Ləyaqətlə keçirdi, böyük inam ilə, sevgi ilə keçirdi, el birliyi, əl birliyi, səs birliyi ilə keçirdi.

7 fevralda xalqımız ədalətə, sülhə, əmin-amanlığa, tərəqqiyə səs vermiş oldu.

Bu seçkilərdə fəal iştirak etməklə xalqımız dünya güclərinə bir daha göstərdi ki, bölgənin titul xalqı bizik və bölgənin taleyini biz müəyyən edirik.

Bu seçki müstəqil dövlətçiliyimizin tarixində ən mütəşəkkil, ən demokratik, ədalətli və nümunəvi seçki kimi qalacaqdır.

7 fevralda keçiirilən prezident seçkilərində xalqımız öz yüksək seçki mədəniyyətini dünyaya nümayiş etdirdi.

Azərbaycan xalqı qədirbilən xalqdır və onu qalib xalq etmiş Liderə öz vəfa borcunu 7 fevralda layiqincə yerinə yetirdi.

7 fevral seçkilərində fəal iştirakı ilə Azərbaycan xalqı öz dövləti ilə bir yerdə olduğunu bəyan etdi, dünya güclərinə bu dövlətin sahibi də, xidmətçisi də mənəm, mesajını verdi.

Bu seçkidə Azərbaycan xalqı birliyimizin simvolu olan Dəmir yumruğun haqqın yanında, zülmün qarşısında mərd dayandığını dəstəklədiyini ifadə etdi.

Xalqımız bir daha öz gur səsini milli lider İlham Əliyevin məğrur səsinə qataraq,- "Biz birlikdə güclüyük", -dedi.

Söz səsdən, səslərin nizamlı birliyindən yaranır. Məhz 7 fevralda Azərbaycan xalqının səsi pərakəndə deyildi, nizamlı idi, bir məqsədə yönələn iradə, fikir birliyinin ifadəsi idi.

7 fevralda hər kəs öz səsi ilə fikrini ifadə edirdi, hər kəs eyni mahnını solo oxuyurdu, bu səslər o qədər bir- birinə yaxın idi ki, nəticədə bir - birinə dəstək verərək, xalqın ruhuna, milləti birliyə səsləyən milli marşımıza, himnimizə çevrildi.

7 fevral 6 milyon 500 min səsin milli xora çevrildiyi bir tarixi gün idi və bu xorda xaric səs yox idi.

Bu seçki bütün fəaliyyətini öz xalqının xoşbəxtliyinə yönəldən, 20 il ərzində xalqa verdiyi bütün vədlərini ləyaqətlə yerinə yetirən, "Bizim siyasətimiz bizim işimizdir", "Sözümüz imzamızdır" söyləyən cənab

Prezidentə doğma xalqının inamını, güvənini ifadə edən "Səsimiz imzanızdır!" dəstəyinin göstəricisi oldu.

Bu seçki həm də Azərbaycanın uğurlarını gözü götürməyən, inkişafımızı, qalibiyyətimizi həzm etməyən qərbdəki şeytanlara xalqın vurduğu tərs şapalaq oldu. Azərbaycan sizin oyun quracağınız meydan deyildir, rədd olun, gedin öz çirkin oyunlarınızı öz xarabanızda oynayin, burada nə sizin rəngli inqilablarınıza, nə baharınıza, nə qışınıza yer yoxdur. Bura bizim məmləkətimizdir, öz Vətənimizdə havanın iqlimini də, ilin fəsillərini də, otların, çiçəklərin rənglərini də ulu Tanrının istəyi ilə biz müəyyən edirik!

Bu Vətəndə küləklərin uğultusu da, çayların nəğməsi də bizim səsimizim ahənginə uyğun səslənəcək, dənizlərin dalğası da bizim səsimizin dalğasında çağlayacaqdır.

7 fevral dünya güclərinə bir daha sübut etdi ki, el gücü sel gücüdür, bu gücün qarşısında heç bir qüvvə dayana bilməz, bu gücün dəstəklədiyi milli Lideri heç nə öz haqq yolundan saxlaya bilməz!

Bu seçkidə coşqu var idi, növbələr var idi, nizamsızlıq, pərakəndəlik yox idi. Sanki bütün seçicilərin ürəyi bir ritmdə döyünürdü.

Dünən təkcə seçkidə iştirak edənlərin deyil, bütövlükdə 60 milyonluq Azərbaycan xalqının nəbzi bir vururdu: Biz səninlə birlikdəyik, cənab Ali Baş Komandan!- deyirdi!

7 vevral seçkilərində Azərbaycan xalqı gələcək xoş günlərə Cənab Prezident İlham Əliyevlə gedəcəyini inamla dünyaya bəyan etdi!

Qalib Xalq 7 fevralda öz Qalib Liderinə səs verməklə qarşıdakı 7 ildə də Zəfər yolunun davamına səs verdi!

Yolumuz uzun, görəcəyimiz işlərimiz isə çoxdur!

Bu yolda ulu Tanrı yar və yardımçınız olsun, cənab Prezident!

Eşq olsun sənə, Azərbaycan xalqı, Sən doğrudan da möhtəşəmsən!!!

# Xalq Azərbaycana inkişaf və Zəfər bəxş edən siyasi kursu seçdi



***Müşfiq Cəfərov, Millət vəkili***

Növbədənkənar prezident seçkilərində səsvermənin nəticələri əslində Prezident İlham Əliyevə, onun nailiyyətlərinə olan inamın göstəricisi idi. Seçkidən əvvəl də xalqın arzu və istəklərindən məlum idi ki, nəticə necə olacaq. Bu prezident seçkiləri Azərbaycanın demokratiya yolu ilə inamla irəlilədiyini bir daha bütün dünyada nümayiş etdirdi. Bu siyasi hadisə də əvvəlki seçkilər kimi bütün parametrləri ilə respublikamızın tarixinə şəffaf seçki kimi yazıldı. İlk dəfə idi ki, seçkilər bütün Azərbaycan ərazilərində keçirilirdi. Azərbaycan xalqı bu seçkidə müdriklik nümayiş etdirərək Azərbaycana inkişaf və Zəfər bəxş edən siyasi kursun ətrafında yumruq kimi birləşdi.

Bu seçki seçici fəallığı ilə də fərqləndi. Bu da vətəndaşların ümummilli siyasi proseslərə olan

münasibətini əks etdirir. 2003-cü ildə xalqın etimadını qazanan Prezident İlham Əliyev bu dövrdə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirdi. Prezident İlham Əliyevin müdrikliyinin, qətiyyətli siyasətinin göstəricisi kimi torpaqlarımız azad edilib, Qarabağda erməni faşizminə son qoyulub. Seçki məntəqələrində gördüyümüz kütləvilik də bunu təsdiq etdi. Vətəndaşlarımız Zəfər siyasi kursunun davamında maraqlı olduqlarını təsdiq etdilər. Bu seçkinin ən mühüm hadisəsi isə İlham Əliyevin ailəsi ilə birlikdə Xankəndidə səs verməsidir. Bu, sıradan hadisə deyil, əsrlərin, dövlətçilik tariximizin əlamətdar hadisəsidir.

Baş tutan andiçmə mərasimində Prezident İlham Əliyev dövlətimiz üçün yeni dövrün yol xəritəsini açıqladı. Prezidentin də qeyd etdiyi kimi bundan sonra daha güclü iqtisadiyyat, ordu, daxili sabitlik, xalq-iqtidar birliyi əsas amillərdir. İndi bütün resurslar ölkənin sürətlə inkişafına yönəldiriləcək.

Prezident İlham Əliyev ötən 20 ildə olduğu kimi bundan sonra da xalqın etimadını doğruldacaq.

Prezident İlham Əliyevin seçkilərdə parlaq qələbəsi xalqın öz liderinə olan sarsılmaz inamından qaynaqlanır. Xalqımız öz prezidenti ilə fəxr edir, ona qələbə sevinci yaşadan, başucalığı gətirən liderinə böyük dəstək verir. Prezident seçkiləri bunun daha bir bariz təcəssümü oldu. Daha bir mühüm məqam isə Prezident İlham Əliyevin fəaliyyətinin 20 ilinin tamam olmasıdır. Seçkilər həm də bu misilsiz dövrün yekunu oldu və xalqın yüksək qiymətini aldı.

Bu günkü Azərbaycan dünya miqyasında güclü ölkələr sırasındadır. Azərbaycan həm beynəlxalq aləmdə, həm regionda, eyni zamanda, daxili siyasət prioritetlərinin düzgün seçilməsində bir çox ölkələr üçün nümunə sayılır, özünəməxsus inkişaf modelləri ilə tanınır. Son 20 ilin mənzərəsi göstərir ki, həm siyasi və hərbi müstəvidə, həm də ölkəmizdə gedən proseslər baxımından getdiyimiz yol düzgün yoldur. Sözsüz ki, müdrik xalqımız bu yolun davam etməsini istəyir və 7 fevral seçkilərinin nəticəsi bunu əyani şəkildə təsdiqlədi. Bu seçkilər həm də xalqın dövlət başçısına hörmət və minnətdarlığını ifadə etməsi üçün bir imkan oldu.

# Prezident İlham Əliyev: "Azərbaycanın zəngin və təkrarolunmaz mədəniyyəti bizim qürur mənbəyimizdir".



Azərbaycanın sürətli inkişafı mədəniyyət sahəsində də özünü qabarıq şəkildə göstərir. Azərbaycan xalqı özünün zəngin milli, mənəvi və əxlaqi dəyərlər prinsipinə daim sadiq qalmış, bu dəyərləri daha da inkişaf etdirməklə əsrlərlə qoruyub saxlamışdır. Azərbaycanın qədim dövlətçilik tarixinə, ənənələrinə malik olduğunu sübut edən bir sıra tarixi abidələri, sənət əsərləri, musiqisi mövcuddur. Ölkəmiz müstəqillik qazandıqdan sonra Azərbaycan mədəniyyətinin inkişaf istiqamətləri də zənginləşmişdir. Mədəniyyətimizdə milli irsin qorunub saxlanılması, eyni zamanda, onun dünya miqyasında təbliğ edilməsi sahəsində böyük işlər görülüb və hazırda bu sahədə görülən tədbirlər davam etdirilir. Artıq uzun illərdir ki, Azərbaycan mədəniyyətinin xarici ölkələrdə təbliği ölkəmizin səsini dünyaya yayır.

# Ölkəmiz İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla irəliləyəcək



***Pərvin Kazımov,***
***Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin rəisi***

7 fevral 2024-cü il tarixdə keçirilən növbədənkənar prezident seçkiləri müasir tariximizin növbəti şanlı səhifəsinə çevrildi və Azərbaycan daha bir tarixi hadisəyə imza atdı. 7 fevral seçkilərində Azərbaycan seçicisinin öz iradəsini böyük fəallıq və coşqu ilə ifadə etməsi, mütləq əksəriyyətlə Qalib Liderə səs verməsi dünya üçün müqayisəsi olmayan nümunə oldu. 200 illik tariximizi şərəfləndirərək Vətəni bütövləşdirən xalqın mütləq qəhrəmanına çevrilmiş cənab İlham Əliyev böyük səs çoxluğu ilə qalib gəldi.

7 fevral 2024-cü ildə keçirilən növbədənkənar Prezident seçkilərini Zəfər seçkiləri adlandırmaq olar. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa verdiyi sözə tam əməl etdi. Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etdi, üçrəngli bayrağımızı Xankəndində, Şuşada, Xocalıda, Laçında,

Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər rayonlarda şərəflə dalğalandırdı.

Bu seçkilər Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin özünə inamının, xalqın siyasi dəstəyinə əminliyinin ən bariz göstəricisi oldu. Prezident İlham Əliyev bu günə qədər dediyi hər məsələni uğurla həyata keçirib. Onun ölkəmizə 20 illik rəhbərliyi dövrü Azərbaycan tarixinin inkişaf, rifah və zəfər dövrüdür və bu illər Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinə möhtəşəm 20 il kimi daxil olub. Onun bir dövlət başçısı kimi mövcud şəraitə adekvat yanaşmaları, düzgün və məqsədyönlü qərarları, eyni zamanda, müasir dünyanın çağırışlarına uyğun addımları ilə xalqın inamını doğrultdu. Dövlətçiliyimizin əsasını təşkil edən ictimai-siyasi sabitliyi qorudu, milli birlik və qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətini daha da inkişaf etdirərək hər bir azərbaycanlının Prezidenti oldu.

Milli mədəniyyətimizin və milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması da Prezident İlham Əliyevin mənəvi-mədəni inkişafa yönəlmiş siyasətinin qaynaqlarından birini təşkil edir. Ölkə Prezidenti çıxışlarından birində xüsusi vurğulamışdır:- "Azərbaycan xalqı öz milli-mənəvi dəyərlərinə həmişə sadiq olmuşdur. Bu gün Azərbaycan dövləti milli dəyərlərimizin qorunması üçün ardıcıl siyasət aparır. Müstəqil Azərbaycan dövləti də milli-mənəvi dəyərlər üzərində qurulmuşdur".

Prezident İlham Əliyevin milli mədəniyyətimizin mühafizəsinə, inkişaf etdirilməsinə onun yüksək keyfiyyətlərinin dünyaya tanıdılmasında rolu böyük olmuşdur. Onun bir dövlər başçısı kimi yürütdüyü

düzgün siyasət nəticəsində son iyirmi ildə mədəni irsimizin bir çox örnəklərinin dünyaya tanıdılması istiqamətində böyük miqyasda dövlət əhəmiyyətli işlər görülüb. Ölkəmizə rəhbərlik etdiyi bu 20 illik dövrdə tar və kamança ifaçılığı sənətinin, ənənəvi xalçaçılığın və ənənəvi kəlağayı sənətinin, "Kitabi-Dədə Qorqud" və "Koroğlu" eposlarının, Molla Nəsrəddin lətifələrinin, aşıq və muğam sənətlərinin, Novruz bayram kompleksinin, Çövkən və Qarabağ atüstü oyunlarının tədqiqi və 2000-ci illərin əvvəllərindən bu günədək İçərişəhər, Qız qalası və Şirvanşahlar saray kompleksi, Qobustan qaya sənəti və mədəni landşaftı, Şəki şəhərinin tarixi mərkəzi və Şəki Xan Sarayı UNESCO-nun Ümumdünya İrs Siyahısına, "Lahıc misgərlik sənəti", "Azərbaycan aşıq sənəti", "Azərbaycan muğamı", "Novruz bayramı", "Dədə Qorqud irsi, dastan mədəniyyəti, xalq nağılları və musiqisi", "Qarabağ atüstü oyun ənənəsi - Çövkən", "Yallı (Köçəri, Tənzərə), "Tar və tar ifaçılığı", "Kamança hazırlanması və ifaçılığı", "Ənənəvi Azərbaycan xalçaçılığı", "Ənənəvi kəlağayı sənəti", "Nazik çörəyin hazırlanması və paylaşması mədəniyyəti", "Dolmanın hazırlanması və paylaşması mədəniyyəti", "Nar bayramı, ənənəvi nar festivalı və mədəniyyəti" UNESCO-nun "Qeyri-maddi mədəni irs üzrə Reprezentativ Siyahısı"na daxil edilib. Azərbaycanın yüksək mədəniyyətli ölkə kimi dünyaya tanıdılması, xalqımızın sahib olduğu mədəni irs örnəklərinin ümumbəşəri əhəmiyyətinin müvafiq beynəlxalq ali instansiyalar tərəfindən qəbul edilməsi və mühafizə altına alınması sahəsində fəaliyyət bu gün də durmadan davam etdirilir.

Mədəniyyətimizə, milli-mənəvi sərvətlərimizə yüksək səviyyədə diqqət və qayğı, bu sahədə aparılan işlərin yüksək səviyyədə təşkili nəticəsində Azərbaycan mədəni irsinin ümumdünya əhəmiyyəti bir daha ortaya qoyulmuş oldu. Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin gərgin əməyinin, eləcə də onun tariximizə, mədəniyyətimizə, milli-mənəvi dəyərlərimizə verdiyi böyük önəmin ifadəsidir.

Dövlətimizin başçısı üçün milli-mədəni irs, milli folklor həm də milli düşüncəli, milli hissiyyatlı gənc nəslin yetişməsində mühüm rol oynayan, heç nə ilə əvəz edilə bilməyən bir məxəzdir. Milli ruhlu və sağlam əqidəli gənclik isə Azərbaycan dövlətinin gələcək mövcudluğunun qarantıdır. Prezident gənclərlə görüşündə gənclərə milli vətənpərvərlik ruhunun aşılanmasına dövlətin xüsusi diqqət yetirdiyini dəfələrlə vurğulayıb.

44 günlük Vətən müharibəsində Prezident İlham Əliyev xalqı öz ətrafında səfərbər edə bilən bacarıqlı və müzəffər sərkərdə kimi torpaqlarımızın işğal altında olmasına son qoyduqdan sonra, özünün Böyük Qayıdış planına uyğun olaraq, dağıdılmış bölgələrdə təkcə infrastruktur obyektlərinin, inzibati və yaşayış binalarının təməlini qoymayıb, eyni zamanda, milli-mədəni ab-havanın bərpası, mədəni dəyər daşıyan abidələrin həyata qaytarılması üçün xüsusi göstərişlər verib və sərəncamlar imzalayıb. Tarixi və dini ibadət yerlərimizin - məscidlərimizin, pir və türbələrimizin yenidən inşası, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin fəaliyyətinin bərpası (2021), Azərbaycan Respublikasının Xocavənd rayonunun Tuğ kəndinin tarixi ərazisində “Tuğ Dövlət

Tarix-Memarlıq və Təbiət Qoruğu”nun yaradılması (2023), Şuşa şəhərinin 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə bağlı tədbirlər planının həyata keçirilməsi (2023) bu işin səciyyəvi nümunələridir.

Otuz illik fasilədən sonra, 2021-ci ildən etibarən Şuşada ölkə Prezidentinin təşəbbüsü və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə “Xarıbülbül” Beynəlxalq Folklor Festivalının yenidən təşkil edilməsi, bunun bir ənənəyə, hər il keçirilən xalq musiqisi bayramına çevrilməsi mədəniyyət tariximizin yeni səhifəsi kimi xüsusi qeyd edilməlidir. Bütün bunlar Prezident İlham Əliyevin və ölkənin birinci xanımı Mehriban Əliyevanın Azərbaycan xalqının ənənəvi mədəniyyətinə, milli-mənəvi dəyərlərinə bağlılığından xəbər verir və bu bağlılığın əməli fəaliyyətdə gerçəkləşən miqyasını göstərir.

# Prezident İlham Əliyev: Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir



"Hər bir ölkənin bu günü və gələcəyi təhsillə bilavasitə bağlıdır. Təhsilin səviyyəsi, eyni zamanda, elmi-texniki tərəqqini də böyük dərəcədə şərtləndirir. İnkişaf etmiş ölkələrin təcrübəsinə baxdıqda, görürük ki, onları inkişaf etmiş ölkələrə çevirən təbii resurslar yox, məhz bilik, savad, təhsil və elmin inkişafıdır".

"Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir**"**.

"Deyə bilərəm ki, son illər ərzində təhsilin maddi-texniki bazasının böyük dərəcədə yenilənməsi artıq həll olunub, 3500-dən çox məktəb ya yenidən tikilib, ya da ki, əsaslı təmir edilib. Azərbaycanda ali məktəblərin mütləq əksəriyyəti müasir standartlara cavab verir, yeni binalar, korpuslar tikilib, yeni ali məktəblər yaradılıb. Hesab edirəm ki, bu sahədə işlərin böyük hissəsi görülüb".

# Prezident İlham Əliyevin siyasi, iqtisadi, mədəni və sosial siyasətini fəal şəkildə dəstəkləyirik



***Şahin Xurşudov,***
***Gəncə Dövlət Universitetinin Tədris məsələləri üzrə prorektoru, iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent.***

7 fevral 2024-cü ildə Azərbaycan Respublikasında azad, ədalətli, şəffaf və demokratik şəraitdə prezident seçkiləri keçirildi. Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə İlham Əliyevin namizədliyinin göstərilməsi xalqımız tərəfindən tam dəstəkləndi. Bu məsuliyyətli tarixi məqamda yeni tipli lider kimi İlham Əliyevə bəslənilən böyük ümidlər bir-birini tamamladı. Azərbaycan xalqı çətin sınaqlardan uğurla çıxaraq ümumxalq inamı qazanmış, müasir tarixi epoxada yeni təfəkkürə malik liderlik qabiliyyətləri ilə cəmiyyətin önündə gedən, Avropada və Müstəqil Dövlətlər Birliyi ölkələrində kifayət qədər yaxşı tanınan, fərqli siyasətçi

kimi diqqəti cəlb edən İlham Əliyevə səs verdi. İlham Əliyevin inamlı qələbəsi bütün ölkə ərazisində olduğu kimi Gəncə şəhərində də bayram əhvali-ruhiyyəsində qeyd edildi.

Azərbaycanda dövlət rəhbəri üçün çox zəruri olan keyfiyyətlərə malik olmaq baxımından İlham Əliyevin çox fərqli üstünlükləri vardır. Azərbaycan siyasətçiləri arasında İlham Əliyevin əsas fərqli cəhəti və üstünlüyü onun dünyamiqyaslı görkəmli dövlət xadimi Heydər Əliyevin böyük sınaqlardan çıxmış dövlətçilik məktəbini real şəkildə keçməsi ilə əlaqədardır.

İlham Əliyevin növbəti dəfə prezident seçilməsi ilə Azərbaycanın müstəqillik tarixində yeni bir mərhələ başlandı. Seçkilərdən sonra ölkənin qarşısında geniş üfüqlər açıldı. Prezident İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən öz müsbət nəticələrini verdi. Xalqın öz liderinə inam və etimadı görülməmiş dərəcədə artdı. Bu qələbə bütövlükdə Azərbaycan xalqının zəfəridir. Bu qələbə lider-xalq birliyinin sarsılmaz olduğunu bir daha sübut etməklə, həm də, Azərbaycanda demokratiyanın növbəti təntənəsi oldu.

Ümumiyyətlə, hər bir seçki xalqın bu və ya digər siyasətə, proqrama münasibəti deməkdir. Cənab İlham Əliyevin seçki proqramı Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf konsepsiyası əsasında yeni dövrdə yeni keyfiyyətlə daha təkmiləşdirilərək tətbiq olunmaqdadır. Prezident İlham Əliyev beynəlxalq

miqyasda dünya liderləri içərisində böyük nüfuza sahib olan şəxsdir. Azərbaycan ərazisinin və əhalisinin sayı baxımından kiçik dövlətdir. Amma bu dövlətin başçısı siyasi çəkisinə və nüfuzuna görə beynəlxalq miqyasda kifayət qədər güclü liderlər sırasındadır. Azərbaycan Cənubi Qafqaz regionunda lider dövlətdir və burada söz sahibi bizik. Yəni, regionla bağlı baş verən hadisələrdə, qlobal layihələrlə bağlı məsələlərdə əsas söz sahibi Prezidentimiz İlham Əliyevdir.

Artıq Azərbaycan bütün sahələrdə ciddi nailiyyətlərə imza atıb. Vətəndaşlarımız qazanılan uğurları öz həyatında hiss edir. Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasının Sədri, dövlət başçısı cənab İlham Əliyevə yüksək inam və etimad göstərməklə ölkəmizin qarşıdakı dövrdə də möhtəşəm nailiyyətlər, uğurlar qazanmasına vəsiqə vermiş oldu. Şübhəsiz ki, qarşıdakı 7 il ərzində də Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası daha da irəliləyəcək, inkişaf edəcək, daha da qüdrətlənərək beynəlxalq müstəvidə öz mövqeyini gücləndirəcəkdir.

Son 20 ildə respublikamızda təhsil infrastrukturunun yenilənməsi sahəsində də böyük nailiyyətlər əldə olunub. Milli təhsilimizi müasir infrastrukturu yenilənmiş, güclü maddi-texniki təchizat güclənmişdir. Bu isə öz növbəsində ölkəmizdə keyfiyyətli təhsilə yol açmışdır. Təhsil infrastrukturunun yenilənməsi həm ümumtəhsil məktəblərini, həm də ali təhsil ocaqlarını əhatə edib. - “Deyə bilərəm ki, son illər ərzində təhsilin maddi-texniki bazasının böyük dərəcədə yenilənməsi artıq həll olunub, 3500-dən çox məktəb ya yenidən tikilib, ya da ki, əsaslı

təmir edilib. Azərbaycanda ali məktəblərin mütləq əksəriyyəti müasir standartlara cavab verir, yeni binalar, korpuslar tikilib, yeni ali məktəblər yaradılıb. Hesab edirəm ki, bu sahədə işlərin böyük hissəsi görülüb”. - Bunu nəzərə çatdıran Prezident İlham Əliyev vurğulayıb.

Son 20 illik bir dövrdə respublikamızda yüksək səviyyəli təhsil infrastrukturunun yaradılmasına dövlət tərəfindən böyük həcmlərdə maliyyə vəsaiti yönəldilib.

Prezident İlham Əliyev təhsilin inkişafı barədə demişdir:-“Təhsil sahəsində bu günə qədər aparılan islahatlar daha da dərinləşməlidir. Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir”, - dövlətimizin başçısı vurğulayıb.

Bu gün milli təhsilimiz qarşıya yüksək intellektuala malik, savadlı və çox ciddi təhsil almış mütəxəssislərin yetişdirilməsi tələblərini qoymuşdur. Qarşımıza qoyduğumuz məqsədlər yüksək bilik və bacarıqlara malik peşəkar mütəxəssislərin hazırlanmasından ibarətdir. Gəncə Dövlət Universitetinin də təhsilin strateji məqsədlərinə çevrilən bir sıra hədəfləri vardlr, bu hədəflər təhsilin, təlim-tərbiyənin inkişafına var gücümüzü sərf etdiyimiz təhsil ocağında yüksək səviyyədə təşkil olunmuş, məqsədyönlü, keyfiyyətli və davamlı təhsil prosesinin yaradılmasını və həyata keçirilməsini nəzərdə tutur. İxtisası üzrə təhsildə uğurlu sayılacaq bütün işlər yalnız təhsil alanların müasir tələblərə cavab verən təlim-tərbiyəsi və hərtərəfli inkişafı prosesində öz müsbət həllini tapır. Gəncə Dövlət Universiteti yetişdirdiyi mütəxəssislərin fərdi inkişafı

üçün yüksək səviyyəli, bacarıqlı, peşəkar, sosial cəhətcə yetkin, arzu, istək və bacarıqlarını həyatda reallaşdıra bilən, cəmiyyətə uyğun müasir əmək bazarında rəqabət bacarığına malik vətəndaş, vətənpərvər şəxslərin inkişafı üçün bütün lazımi şəraitə malikdir və bu istəklərin həyata keçirilməsi yolunda bütün mövcud imkanlardan istifadə edir. Çünki, gənclərin sosial aktivliyi onların ixtisaslı mütəxəssis hazırlığında böyük əhəmiyyətə malikdir.

Tədris konsepsiyasının strateji məqsədlərindən biri də gənclərdə ümummilli, mənəvi-əxlaqi dəyərlərin formalaşdırılmasından ibarətdir. Gənclərin Azərbaycan mədəniyyətinin daşıyıcıları olduğunu nəzərə alaraq, bu işlərin gənclər arasında maarifləndirmə və təlim-tərbiyə işinin özəyinin əsasını təşkil etdiyini unutmamalıyıq. Bu səbəbdən gənclərin istək və maraqlarının ictimai fəaliyyətin müxtəlif sahələrinə - ictimai fəaliyyətə, ictimai və siyasi həyatda iştiraka, mədəni və əyləncəli fəaliyyətlərə cəlb etməklə, onlarda yüksək mənəvi prinsiplərin və mənəvi keyfiyyətlərin inkişafına və formalaşdırılmasına can atırıq. Bu istək, bacarıq və keyfiyyətlər sistemi daim insanı çalışdığı kollektivdə önə gətirən, nəzərə çarpdıran və qiymətləndirən amillər olub və olacaqdır. Bu səbəbdən təhsil sistemində gənclər daim sivil dünyaya açıq şəkildə yönəldilməli və pedaqoqlar universitetdə atılan əməli addımlarla onlara həyatda və peşəkar fəaliyyətdə məhz nəyin yaxşı və nəyin pis olduğunu ayırmağa kömək etməlidir. Bütün bunlar, adətən, tədris prosesində, təhsil və elm sahəsində, ictimai fəaliyyətdə, təcrübə mübadiləsi zamanı və tələbə

birliklərinin həyata keçirdikləri müxtəlif növ və məzmunda olan məqsədyönlü işlərlə həyata keçirilir.

Biz əbədiyaşar lider Heydər Əliyevin müəyyən etdiyi milli dövlətçilik prinsiplərinə sadiqlik nümayiş etdirərək, müstəqil Azərbaycan dövlətinin daha da qüdrətlənməsi və tərəqqisi naminə əzmlə və yorulmadan çalışır, Prezident İlham Əliyevin siyasi, iqtisadi, mədəni və sosial siyasətini fəal şəkildə dəstəkləyirik.

# Prezident İlham Əliyevin apardığı sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır



***Məsim Abadov,***
***Gəncə Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, dosent.***

Xalqın ümummilli hədəflərə çatmaq arzusu İlham Əliyevin 2024-cü il 7 fevral növbəti prezident seçkisindən də qalib çıxmasını şərtləndirdi. Həmin gün xalq yenə də Prezident İlham Əliyevə səs verdi. Azərbaycan xalqı İlham Əliyevi Prezident seçməklə öncə Heydər Əliyevin siyasi kursuna səs verdi. O kursa sadiqliyini nümayiş etdirən xalqımız Ümummilli Liderə sevgisini və inamını bir daha sübut etdi. Azərbaycan xalqı sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını

göstərdi. Zəngin və qüdrətli Azərbaycan uğrunda çağırışı ilə milyonları öz ətrafında toplayan İlham Əliyevin yürütdüyü siyasət nəticəsində Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu prosesini uğurla həyata keçirtməkdədir.

Prezident İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti öz müsbət nəticələrini vermiş, xalqın öz liderinə inam və etimadı görülməmiş dərəcədə artmışdır.

Əsrə bərabər 20 ilin zirvəsində təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu Qələbə sayəsində regionda yeni reallıqlar yaranmışdır.

Dünya hərb tarixində xüsusi yer tutan bu müharibə Prezident İlham Əliyevin daha bir keyfiyyətini - sərkərdəlik məharətini üzə çıxardı. O, əməliyyatlara şəxsən nəzarət edir, döyüşən orduya tapşırıqları birbaşa özü verirdi. Qələbəni şərtləndirən mühüm amillərdən biri də Azərbaycan Prezidentinin diplomatiya müstəvisində çevik siyasəti oldu. Müharibə dövründə dövlətimizin başçısı İlham Əliyev xarici KİV-ə 30-dan çox müsahibə verdi ki, bu da münaqişə ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynadı.

Əlbəttə, Vətən müharibəsində qazanılmış Qələbə həm də son 30 ildə həyatın bütün sahələrində əldə olunmuş

uğurlarla, dinamik inkişafla bilavasitə bağlıdır. Ötən dövr Azərbaycanda bütün istiqamətlərdə böyük inkişafın müşahidə edilməsi, ölkəmizin bölgədə və dünyada mövqelərini gücləndirməsi ilə müşahidə olundu. Müstəqilliyimizin və ideoloji dayaqlarımızın daha da möhkəmləndirilməsinin, vətəndaş həmrəyliyinin bərqərar olmasının təməlində isə Azərbaycan dövlətinin milli maraqlarının qorunması dayandı. Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırdı. Azərbaycan beynəlxalq müstəvidə layiqli yerini möhkəmləndirdi. Regional təşəbbüslər Azərbaycanın möhkəmlənməsinə, həm də bölgədəki əməkdaşlığın inkişafına xidmət etdi

Azərbaycanda ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, silahlı qüvvələrin hərbi hazırlıq səviyyəsinin artırılması ilə bağlı görülən işlər Dağlıq Qarabağın Azərbaycandan qoparılması ilə bağlı bəzi dairələrdə yaranan əminliyi darmadağın etdi, xalqımızı ordumuzun etibarına inandırdı. Azərbaycanda güclü müdafiə sənayesi quruldu.

Bu dövrdə Azərbaycanın iqtisadi uğurları daha da böyüdü, iqtisadi nailiyyətləri ilə hər zaman diqqət mərkəzində olan ölkəmizin valyuta ehtiyatları, o cümlədən Azərbaycana qoyulan sərmayələrin həcmi artdı, güclü sahibkarlıq sinfi yarandı. Regionların sosial-iqtisadi inkişafına dair həyata keçirilən üç dövlət proqramı sayəsində bölgələrdə inkişaf prosesləri sürətləndi, kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı konkret proqramlar icra olundu. İşsizliyin və yoxsulluğun

səviyyəsi aşağı düşdü, Azərbaycanda 2 milyondan çox yeni iş yeri yaradıldı.

Ölkədə qeyri-neft sektorunun inkişafı neft siyasətinin məntiqi davamı oldu. Güclü iqtisadiyyatın hər bir ölkənin inkişafında mühüm amil olduğunu bəyan edən Prezident İlham Əliyev ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı tədbirlər gördü. Nəhəng infrastruktur layihələrinin, Olimpiya İdman komplekslərinin inşası gənc nəslin sağlamlığının qorunmasına mühüm töhfələr verdi. Yüzlərlə səhiyyə ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafını göstərdi. Ölkədə minlərlə məktəb tikildi, təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirildi. Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin etdi. Bütün bunların təməlində isə uğurlu enerji siyasəti dayandı.

Azərbaycançılıq fəlsəfəsi İlham Əliyev siyasətinin mənəvi dayağına çevrildi. Milli ləyaqət, milli qürur uğurlarımızın əsas şərtləri oldu. Prezident İlham Əliyevin yürütdüyü siyasət müasir Azərbaycanın güclənməsinə, milli-mənəvi dəyərlərimizin ən yüksək səviyyədə qorunmasına xidmət etdi. Dünyada tolerantlıq məkanı kimi tanınan Azərbaycan Prezident İlham Əliyevin xidmətləri sayəsində mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məkanı kimi tanındı.

Prezident İlham Əliyevin apardığı sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Dövlətimizin başçısının iqtisadiyyatın inkişafı və insanların sosial rifah halının yüksəldilməsi istiqamətində atdığı ardıcıl və

effektiv addımlar bunu bir daha təsdiqləyir. Siyasi, iqtisadi imkanlarının genişləndirilməsi Azərbaycanın beynəlxalq arenadakı mövqelərini möhkəmləndirib. Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

Güclü xalq, güclü dövlət, güclü lider vəhdəti müstəqil və müasir Azərbaycanın qüdrətinə çevrilmiş, Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf konsepsiyası bütün azərbaycanlıların həyatına birdəfəlik daxil olmuşdur. Məhz görülən işlərin nəticəsidir ki, Azərbaycan xalqı bu il keçirilən prezident seçkilərində də İlham Əliyevə etimad göstərərək onu növbəti dəfə dövlət başçısı seçdi.

# Azərbaycan xalqı öz prezidenti ilə fəxr edir



***Azad Bayramov,***
***YAP Gəncə şəhər təşkilatının 3 saylı ərazi partiya təşkilatının sədri, ADAU-nun İctimai fənlər kafedrasının müəllimi, professor***

2024-cü il fevralın 7-də keçirilən president seçkilərində İlham Əliyev inamlı qələbə qazanaraq növbəti müddətə dövlət başçısı seçildi. Bu qələbə xalqın öz liderinə sarsılmaz inamından qaynaqlanmaqla, son iyirmi ildə görülən işlərə, qazanılan uğurlara verilən dəyərdir. Digər diqqət çəkən məqam ondan ibarətdir ki, ilk dəfə olaraq bu seçkilər Azərbaycanın hər bir guşəsində, o cümlədən 30 illik işğaldan azad edilmiş torpaqlarımızda keçirildi. Seçkilər Azərbaycan üçün tarixi önəm daşıyırdı, çünki təqribən 30 illik fasilədən sonra ölkənin bütün ərazilərində seçki coşqusu yaşanıb.

Azad olunmuş ərazilərdə təxminən 22 min seçici səsvermədə iştirak edib. Qarabağın incisi Şuşada, Xankəndidə, ermənilərin soyqırımı cinayəti törətmiş Xocalıda və digər azad olunmuş ərazilərdə səsvermə keçirilib”, Azərbaycan xalqı səsini İlham Əliyevə verməklə, Ümummilli Lider Heydər Əliyevin ideyalarına sədaqətini nümayiş etdirdi. Prezident seçkiləri bir dövrün yekunu, yeni bir dövrün başlanğıcı sayılır. Ötən ilin sentyabrında suverenliyimiz tam bərpa olundu, Qarabağda separatçı rejimin mövcudluğuna bir dəfəlik son qoyuldu. Bununla da Azərbaycan tarixinin çox mühüm dövrünə yekun vuruldu.

2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlamışıq. Müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən -uğurlu antiterror tədbirlərindən sonra başlayıb. Bir sutkadan da az çəkən bu tədbirlər Azərbaycan Ordusunun tam Zəfəri ilə nəticələndi. Separatçı rejim diz çökdü və ağ bayraq qaldıraraq təslim oldu. Daha bir mühüm məqam Prezident İlham Əliyevin fəaliyyətinin 20 ilinin tamam olmasıdır. Seçkilər həm də bu misilsiz dövrün yekunu oldu və xalqın yüksək qiymətini aldı. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev qüdrətli sərkərdəliyi, öz müdrik siyasəti ilə xəyal kimi görünən arzularımızı həqiqətə çevirdi. İndi isə yeni bir dövr başlayır, bu dövrün başlanğıcı məhz prezident seçkiləri ilə qoyulur.

Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilib. Andiçmə mərasimində birinci xanım Mehriban

Əliyeva, dövlət rəsmiləri, hökumətin üzvləri, Milli Məclisin deputatları iştirak ediblər.

İlham Əliyev ölkə inkişafının əsas istiqamətləri haqqında danışanda “ordu qurculuğu”, “hərbi sənayenin inkişafı”, “sərhədlərin qorunmasının gücləndirilməsi”, “xarici risklərdən qorunmaq”,“milli birlik”, “azərbaycançılıq”, “azad edilmiş ərazilərin bərpası”, “məcburi köçkünlərin doğma yurdlarına qaytarılması”, “iqtisadi və sosial sahədə inkişaf”, “yoxsulluq və işsizliyin aradan qaldırılması”, “xarici investisiyaların cəlbi”, “monopoliyalara qarşı mübarizə”, “nəqliyyat infrastrukturu”, “tranzit imkanlarından faydalanmaq”, “texnoloji və süni intellekt sahəslərin ininkişafı” ifadələrini istifadə edib. Önəmli vəzifənin Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi olduğunu bildirdi: “Burada görülən işlər azad edilmiş torpaqlara gələn hər bir qərəzsiz xarici qonağı valeh edir. Çünki bu dərəcədə dağıntılardan sonra bu sürətlə bərpa işlərinin aparılması, yəqin ki, tarixdə görünməmiş bir hadisədir”.

Hər bir Azərbaycan vətəndaşı, dünyada yaşayan hər bir azərbaycanlı şanlı Qarabağ Zəfərinin sevincini yaşayır, haqlı qürur hissi keçirir. Azərbaycanın çoxəsrlik tarixində heç vaxt buna bənzər qələbə olmayıb.

Xalqımız öz prezidenti ilə fəxr edir, ona qələbə sevinci yaşadan, baş ucalığı gətirən liderinə böyük dəstək verir. Prezident seçkiləri bunun daha bir bariz təcəssümü oldu.

# Prezident İlham Əliyev: "Hər bir cəmiyyətdə, əlbəttə, o cümlədən Azərbaycanda da həmkarlar ittifaqının rolu artır".



"Biz vətəndaşlar üçün sosial cəhətdən müdafiə edilmiş əmək şəraiti yaratmağa çalışırıq. Bu, son 15 ildə 5 dəfədən çox artırılan əməkhaqqında və əmək şəraitində də özünü göstərir. Əlbəttə ki, daimi nəzarət və həllini tələb edən məsələlər də diqqət mərkəzindədir. Bu, ilk növbədə, məşğulluqla əlaqədardır".

Cənab İlham Əliyevin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır və qəbul etdiyi bütün qərarlar da dövlətimizin, xalqımızın mənafeyi əks olunur. Cənab İlham Əliyev fəaliyyətinin ilk günlərindən həmkarlar ittifaqlarının fəaliyyətini dəstəkləyib, yüksək dövlət qayğısı göstərib və bu himayədarlıq həmkarlar ittifaqlarının fəaliyyətində yeni mərhələnin yaranmasına təkan verib.

# İlham Əliyev yolu Azərbaycan xalqını xoş gələcəyə aparan nurlu yoldur



***Bayram Hacıyev,***
***Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının Gəncə şəhər Komitəsinin sədri.***

Ümummilli Lider Heydər Əli yevin siyasi kursunun yeganə düzgün yol olduğunu dərk edən xalqımız 2024-cü il fevral ayının 7-də keçirilən növbədənkənar seçkilərdə bu siyasətin layiqli davamçısı kimi cənab İlham Əliyevi dəstəkləyərək, onu özünə yenidən Prezident seçdi və bununla da ölkəmizin inkişafında yeni bir mərhələ başladı.

Müasir tariximizə möhtəşəm 20 il kimi yazılan ötən dövrdə Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyevin inkişaf etdirərək yeni geosiyasi şərtlərə uyğunlaşdırdığı siyasət nəticəsində Azərbaycan Respublikası misilsiz inkişaf yolu keçmişdir.

Cənab İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, milli maraqlara söykənən daxili və xarici siyasəti qısa müddətdə ona xalq arasında böyük rəğbət, sonsuz inam və etibar qazandırdı.

Məhz bu keyfiyyətlərinə görə xalqımız keçirilən prezident seçkilərində cənab İlham Əliyevi öz müstəqil dövlətinə yenidən rəhbər seçdi.

Hələ ötən ilin dekabr ayının 20-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) növbədənkənar VI Qurultayında müzakirə olunan 5 məsələ arasında ilk olaraq İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikası Prezidentliyə namizədliyinin dəstəklənməsi barədə qərar qəbul olunmuşdu. AHİK-in İcraiyyə Komitəsinə İlham Heydər oğlu Əliyevin 2024-cü ilin fevral ayında keçiriləcək prezident seçkilərində namizədliyinin dəstəklənməsi ilə bağlı müvafiq tədbirlərin təşkili və həyata keçirilməsi ilə bağlı tapşırıq verilmişdi.

AHİK-in VI qurultayının iştirakçıları gələn ilin fevralında növbədənkənar prezident seçkilərində İlham Əliyevin namizədliyinin dəstəklənməsi ilə bağlı bəyanat qəbul etdilər.

-Əminik ki, 2024-cü il fevralın 7-də keçiriləcək prezident seçkilərində həmişə olduğu kimi, Azərbaycan xalqı sarsılmaz birliyini, həmrəyliyini qoruyaraq tərəqqiyə, inkişafa səs verəcək-deyən AHİK sədri Səttar Möhbalıyev həmkarlar ittifaqlarının ötən 20 ildə qazandığı nailiyyətlərdə və inkişafında Prezident İlham Əliyevin böyük dəstəyini qeyd etdi.-“Konfederasiyada

birləşən 1,5 milyon həmkarlar ittifaqı üzvü prezident seçkilərində Vətənimizin bütövlüyünü təmin edən, ölkəmizi qabaqcıl dövlətlər sırasına çıxaran dövlət başçısı İlham Əliyevin ölkə prezidentliyinə namizədliyini yekdilliklə dəstəkləyir və seçkilərdə ona səs verəcəklərini bəyan edirlər. Biz xalqımızın parlaq gələcəyini, ulu öndər Heydər Əliyevin inkişaf strategiyasının uğurlu davamını Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyində görürük", - deyə AHİK sədri vurğuladı.

Bakı Konqres Mərkəzində keçirilən bu tədbirdə üç minə yaxın nümayəndə iştirak edirdi və iştirakçılar yekdilliklə növbədənkənar prezident seçkilərində İlham Əliyevin namizədliyinin dəstəklənməsi ilə bağlı bəyanat qəbul etdilər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasımın və üzv təşkilatlarının Prezident İlham Əliyevə ünvanladığı müraciətdə deyilirdi:

"Möhtərəm Prezident! Bu gün bütün vətəndaşlarımız, həmçinin xalqımızın hər bir nümayəndəsi, o cümlədən ölkəmizdən uzaqlarda yaşayan, qəlbi Vətən eşqi ilə döyünən soydaşlarımız Böyük Qələbənin sevincini yaşayır. Xalqımızın nümayiş etdirdiyi sarsılmaz birlik, yenilməz Ordumuzun rəşadəti, Sizin diplomatik səriştəniz və Ali Baş Komandan olaraq sərkərdəlik məharətiniz bizi uzun illər gözlədiyimiz parlaq Zəfərə qovuşdurdu. Bununla iki yüz illik münaqişədən, otuz illik müharibədən qalib ayrıldıq, haqq-ədalət öz yerini tapdı. İndi bir xalq olaraq başımız dik, alnımız açıqdır. Xoşbəxtik ki, biz öz torpaqlarımızın sahibiyik, dövlətimizin suverenliyi bütün ölkə ərazisində təmin

olunub, ay-ulduzlu, üçrəngli müqəddəs bayrağımız Vətənimizin hər bir nöqtəsində - Şuşada, Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə, Əsgəranda və digər işğaldan azad edilmiş şəhər və kəndlərimizdə əzəmətlə dalğalanır. Bu mənzərəni seyr etmək bizi həm fərəhləndirir, həm də duyğulandırır.

Biz bu yerə zamanın axarı ilə deyil, Sizin gərgin zəhmətiniz, yorulmaz və möhtəşəm siyasi fəaliyyətiniz sayəsində gələ bilmişik. Prezident olaraq ilk gündən böyük amallar, ali dəyərlər, xalqımızın və dövlətimizin misilsiz nailiyyətlər uğrunda mübarizə apardınız, bu yolda bütün çətinliklərə sinə gərdiniz. Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində apardığınız bütün danışıqlarda sülh naminə çalışdınız, bu yolda təcavüzkar dövlətin yalançı iddiaları, ikili standartlarla, böyük dövlətlərin cılız yanaşmaları ilə üzləşdiniz. Amma qətiyyətiniz, prinsipiallığınız, polad iradənizlə onların qarşısında diplomatik sədd çəkdiniz, milli maraqları hər şeydən üstün tutaraq heç bir güzəştə getmədiniz. Həmçinin atdığınız mühüm addımlarla düşmənə mənəvi-psixoloji sarsıntılar yaşatdınız və xalqımızda qələbəyə olan inamı artırdınız. Bununla yanaşı, Ulu Öndər Heydər Əliyevin uzaq hədəflərə hesablanmış iqtisadi siyasətini, mükəmməl Ordu quruculuğu strategiyasını əzmlə davam etdirdiniz. Elə bir Ordu formalaşdırdınız ki, onun Sizin peşəkar rəhbərliyinizlə 44 günlük Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq beynəlxalq ictimaiyyətin dillər əzbəri oldu, tətbiq etdiyi taktika dünyanın nüfuzlu ali hərbi məktəblərinin nəzəri və praktiki tədrisinə çevrildi.

Müzəffər Ali Baş Komandan!

Qarabağda keçirilən son antiterror tədbirləri nəticəsində işğalçı dövlətin məhv edilmiş ordusunun tör-töküntüləri, qeyri-qanuni erməni silahlı dəstələri tərk-silah edildi, separatçı qüvvələr, qondarma rejim təslim oldu və bunla ölkəmizin bütün ərazisində dövlətimizin suverenliyi tam təmin edildi. Xankəndidə bayraq ucaltmaqla işğalçı dövlətin və separatçı qüvvələrin bütün xam xəyallarını dəfn etdiniz, yazdığınız hər səhifəsi qəhrəmanlıqla dolu Qarabağ salnaməsinin nöqtəsini qoydunuz. Ulu Öndər Heydər Əliyevin layiqli varisi olaraq, onun yarımçıq qalan arzularını gerçəkləşdirdiniz, Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirdiniz.

Bu gün biz fəxr edirik ki, Sizin müdrik rəhbərliyiniz sayəsində günü-gündən tərəqqi edən, şanı-şöhrəti dünyanı bürüyən, demokratiyanın bütün təzahürlərinin, siyasi sabitliyin, əmin-amanlığın bərqərar olduğu Qalib ölkənin vətəndaşlarıyıq.

Cənab Prezident!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və ona üzv təşkilatlar, o cümlədən həmkarlar ittifaqlarının üzvləri ölkəmizin müstəqilliyinin möhkəmlənməsi, suverenliyinin qorunması, dövlətimizin daha da inkişafı və xalqımızın xoşbəxt gələcəyi naminə Sizin ətrafınızda monolit qüvvə kimi birləşərək həmrəyliyini ifadə edir, daxili və xarici siyasətinizi dəstəkləyir".

Qeyd edək ki, 26 sahə həmkarlar ittifaqı birliklərinin könüllü ittifaqı olan AHİK-in 1 milyon 500 min üzvü var. 7 fevral növbədənkənar Prezident çeçkilərində AHİK

üzvləri hörmətli İlham Əliyevə dəstək nümayiş etdirərək, Azərbaycanın bu sevimli oğluna səs verdilər.

20 ildir ki, Azərbaycan xalqı keçirilmiş bütün prezident seçkilərində öz taleyini yalnız İlham Əliyevə etibar edib. O, Azərbaycan xalqına verdiyi bütün vədləri yerinə yetirib, hər kəs Prezident İlham Əliyevin sözünün imzası qədər güclü olduğunu bilir. İlham Əliyev Azərbaycan xalqını ən böyük arzusuna çatdıran - Şuşanı azad edən milli liderdir.

Bu gün Ulu Öndər Heydər Əliyevin ruhu şaddır. Azərbaycan Bayrağının Şuşada, Xankəndində, Xocalıda qürurla dalğalanması tarixə əbədi həkk olan böyük səadətdir.

Azərbaycan son 20 ildə Prezident İlham Əliyevin rəhbərliyi, qətiyyətli siyasəti nəticəsində qələbədən qələbəyə doğru mətin addımlarla irəliləyib, böyük inkişaf yolu keçib, zirvələr fəth edib. Bütün bunlar nəyi, nə vaxt və necə etmək lazım olduğunu dəqiq hesablayan siyasi liderin tarixi xidmətləridir.

Bu gün dünyanın müxtəlif regionlarında qanlı hadisələr, sonu görünməyən müharibələr baş verir. Belə bir şəraitdə Azərbaycan dünyada sabitlik, inkişaf, təhlükəsizlik adası kimi yalnız irəliyə gedir, şöhrəti bütün aləmə yayılır. Birinci xanım Mehriban Əliyeva da bu şərəfli yolda Azərbaycan Prezidentinin ən yaxın silahdaşıdır.

Hörmətli prezidentimizi 7 fevral növbədənkənar prezident seçkilərində qələbə münasibətilə təbrik edir, AHİK üzvləri adından ona möhkəm can sağlığı, işlərində ən böyük uğur və nailiyyətlər arzulayırıq!

# Prezident İlham Əliyev: "Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir".



"Əgər Azərbaycan müharibə vəziyyətində olmasaydı, büdcədə təhsil xərcləri birinci yerdə olacaqdı."

"Təhsilin səviyyəsi ölkəmizin perspektivlərini müəyyən edəcək. Biz inkişaf etmiş ölkələrin təcrübəsini yaxşı bilirik və görürük ki, o ölkələr, sözün əsl mənasında, inkişaf edir ki, orada təhsilin səviyyəsi yüksəkdir. Biz çalışırıq ki, Azərbaycanda bu sahəyə daim diqqət göstərilsin, praktiki tədbirlər görülsün, həm təhsil sisteminin maddi-texniki bazası güclənsin, eyni zamanda və ən önəmlisi təhsilin keyfiyyəti artsın. Həm orta, həm də ali məktəblərdə bu proses ardıcıllıqla, vahid sistem şəklində aparılmalıdır və aparılır".

# Dövlətimizin başçısına olan məhəbbət vətənimizə və onun işıqlı gələcəyinə olan məhəbbət deməkdir



***Nərgiz Həsənova,***
***Gəncə şəhəri üzrə Təhsil Sektorunun müdiri.***

7 fevral 2024-cü il tarixdə keçirilən növbədənkənar Prezident seçkilərində İlham Əliyevin əzmli qələbə qazanması bütün Azərbaycan xalqı kimi biz təhsil işçilərini də sevindirdi. Cənab Prezidentə öz səsini verməklə xalqımız özünün dinamik inkişaflı gələcəyinə səs verdi.

Azərbaycanın yeni əsrdə yeni lideri olan möhtərəm cənab İlham Əliyevin birinci müddətə Prezident seçilməsindən artıq iyirmi il tamam keçir. Bu dövrdə milli dövlətçiliyin əsaslarının gücləndirilməsi istiqamətində strateji

əhəmiyyətli addımlar atılmış, həmçinin milli dövlətçiliyin gücləndirilməsi baxımından böyük əhəmiyyət daşıyan – təhsilin inkişafına çox mühüm təkan verən vəzifələr reallaşdırılmışdır.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun yeganə düzgün yol olduğunu dərk edən xalqımız 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə bu siyasətin layiqli davamçısı kimi cənab İlham Əliyevi dəstəkləyərək, onu özünə yeni Prezident seçdi və bununla da ölkəmizin inkişafında yeni bir mərhələ başladı.

Müasir tariximizə möhtəşəm 20 il kimi yazılan ötən dövrdə Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyevin inkişaf etdirərək yeni geosiyasi şərtlərə uyğunlaşdırdığı siyasət nəticəsində Azərbaycan Respublikası misilsiz inkişaf yolu keçmişdir.

Cənab İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, milli maraqlara söykənən daxili və xarici siyasəti qısa müddətdə ona xalq arasında böyük rəğbət, sonsuz inam və etibar qazandırdı. Məhz bu keyfiyyətlərinə görə xalqımız 2008, 2013 və 2018-ci illərdə keçirilən prezident seçkilərində də cənab İlham Əliyevi öz müstəqil dövlətinə yenidən rəhbər seçdi.

Prezident İlham Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində bu gün Azərbaycan qlobal proseslərin mənfi təsirindən minimum itkilərlə çıxan azsaylı ölkələrdən biri olmaqla yanaşı, beynəlxalq əhəmiyyətli strateji, enerji, nəqliyyat, logistika və kommunikasiya qovşağına, investorların maraq mərkəzinə çevrilmişdir.

Cənab Prezident tərəfindən aparılan uğurlu, qətiyyətli siyasət, həyata keçirilən dövlət proqramları və iqtisadi layihələr Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafına təkan verməkdədir. Son 20 ildə iqtisadi artım dinamikasına dair rəqəmlər bütün mənzərini aydın göstərir.

Dövlətimizin başçısına olan məhəbbət vətənimizə və onun işıqlı gələcəyinə olan məhəbbət deməkdir. Biz öz şagirdlərimizi məhz bu ruhda böyütməyə çalışırıq.Təhsil ocaqlarında vətənpərvərlik ideyalarının təbliği ilə bağlı aparılan bu işlər vətənini, xalqını sevən vətəndaşların formalaşmasında vacib tərbiyəvi əhəmiyyət daşıyır. Bu işlərin böyük hissəsi gənc nəslin təlim-tərbiyəsi, müasir elmi-pedaqoji əsaslara söykənən təlim-tərbiyə prosesinin nəzəriyyə və metodikasını dərindən bilən müəllimlərin üzərinə düşür. Şagirdlərin dünyagörüşünün, ictimai fəallığının, özfəaliyyət və təşkilatçılıq qabiliyyətinin formalaşması qayğıları bu insanların çiyinləri üzərində dayanır. Onlar öz səmərəli işi ilə şagirdləri yüksək səviyyədə maariflənməyə və təhsil almağa çağırır. Bir çox şagirdlərdə bilik, bacarıq və vərdişlər məhz onların axtarıcılıq, yaradıcılıq, təşkilatçılıq qabiliyyətləri nəticəsində aşkar olunur və onlarda bu keyfiyyətlər inkişaf etdirilir. Onlar şagirdlərdə ictimai işlərə maraq yaradır, bəzən ən passiv şagirdlər belə onların apardığı işlər nəticəsində ən gözəçarpan, fəal və işgüzar şagirdlərə çevrililər. Həmin uşaqlar kollektivin gözü qarşısında vətəndaş kimi formalaşır, bacarıq və savadı daha da püxtələşir və daha böyük işlərə imza atmağa səy göstərirlər. Bu, onların fəallığını artırmaqla, təhsildə

nizam-intizamın möhkəmləndirilməsinə də böyük təsir göstərmiş olur. Eyni zamanda bu, təhsildə, təlim-tərbiyədə daha geniş imkanların açılmasına şərait yaradır.

Gəncə-Daşkəsən Regional Təhsil İdarəsi Gəncə şəhəri üzrə Təhsil Sektorunun tabeliyində olan təhsil müəssisələrində İllər ərzində həyata keçirilən işlər məktəblilərin dövlətimizə və dövlətçiliyimizə olan sevgi və məhəbbətinin daha da artmasına, onlarda vətəndaş şüurunun formalaşmasına xidmət etmişdir.

Bu məktəblərin müəllim kollektivlərinin illər ərzində gördüyü işlərin əhəmiyyəti əvəz edilməzdir. Onların təşkilatçılığı ilə keçirilən tədbirlər öz xüsusiliyi, əhəmiyyətliliyi ilə həmişə seçilir, yaddaqalan olur. Bu işlər təcrübədə təlim-tərbiyə prosesini də tamamlamış olur. Təcrübəli insanların rəhbərliyi altında şagird qrupları və təşkilatları kütləvi tədbirlərlə yanaşı məktəbin bütün ictimai işlərində yaxından iştirak edirlər. Onlar, yaradıcı qabiliyyəti, bacarıq və savadı ilə seçilən uşaqlar ilə işləmək təcrübəsindən məharətlə istifadə edir, şagirdlər onlarda kəşf olunan bu keyfiyyətləri ilə məktəblərin ümumi işinə daim öz töhfələrini verirlər.

Bütün bu işlər təhsil alanların maraq və ehtiyacları, arzu və istəkləri nəzərə alınmaqla ardıcıl və sistemli şəkildə həyata keçirilir. Gəncə şəhərində fəaliyyət göstərən orta təhsil ocaqlarının bu sahədə özünəməxsus uğurlu iş təcrübəsi vardır. Əldə olunan uğurlar təhsilin ümumi inkişafına xidmət etməklə daha böyük göstəricilərin əldə edilməsinə zəmin yaratmışdır.

# Azərbaycanın inkişafındakı misilsiz xidmətlərinə görə dərin minnətdarlığımızı bildiririk



***Əliağa Səfərəliyev,***
***Respublikanın Əməkdar müəllimi, M.Mehdizadə adına Gəncə şəhər, 4 nömrəli xarici dil təmayüllü məktəb-liseyin direktoru.***

İlham Əliyevin 7 fevral 2024-cü ildə keçirilən növbəti prezident seçkilərində qalib gəlməsi onu bir lider kimi olaraq hakimiyyət başında görmək istəyən milyonlarla azərbaycanlılnın arzusunun ifadəsi idi. Xalq seçkilərdə öz sözünü dedi və özünün əvəzolunmaz liderini seçdi.

O, ölkəsinin  layiqli vətəndaşı və yenilməz siyasətçi olaraq, ölkəmizin davamlı inkişafına böyük əmək və enerji sərf etmişdir. İlham Əliyev dünya azərbaycanlılarının lideri kimi  ən yüksək kriteriyalara cavab verir. Onun respublikamıza başçılıq etdiyi bu illər ərzində ölkəmizin bütün sahələrində sürətli inkişafa nail

olunub, insanların rifah halı daha da yaxşılaşıb. Azərbaycanın siyasi, iqtisadi imkanları genişləndirilib, müasir ordumuz yaradılıb, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib.

Bu gün ölkənin gələcək inkişaf strategiyası uğurla həyata keçirilməkdədir. O, ölkədə quruculuq və sosial inkişafla bağlı planların reallaşdırılmasına, insanların yaşayış səviyyəsinin yüksəldilməsinə, iqtisadiyyatın inkişafına, müdafiə qabiliyyətinin artırılmasına nail olmaq üçün yorulmadan çalışır.

Cənab Prezident bir lider kimi daim insanların əhval-ruhiyyəsini, onların ehtiyaclarını hiss etməyə çalışır, Azərbaycan xalqı onu sevir və ona etibar edir.

Ölkə başçısı İlham Əliyevin 20 illik misilsiz dövlətçilik fəaliyyəti gənclər üçün də əsl vətənpərvərlik və liderlik örnəyidir. Cənab İlham Əliyev prezidentlik dövründəki bu illəri torpaqlarımızın azad olunması məqsədilə hazırlıq işlərinə yönəltmiş, ordumuzu Qələbəyə hazırlamış, diplomatik cəbhədə üstünlüyümüzü təmin etmək üçün ən yüksək tribunalardan haqq səsimizi dünyaya çatdırmışdır.

İham Əliyevin çoxşaxəli fəaliyyəti nəticəsində sağlam, müasir, vətənpərvər gənclik modeli formalaşdırılıb. Heç təsadüfü deyil ki, cənab İlham Əliyevin prezidentlik dövründə yetişən gənclər 44 günlükVətən müharibəsi dövründə böyük şücaət, qəhrəmanlıq göstərərək böyük Zəfərdə böyük pay sahibi oldu. İndi bütün gənclərimiz, xalqımız ətrafında sıx birləşərək, lideri vasitəsilə qələbə ruhunun, haqq mübarizəsinin nəticələrini dünyaya bəyan edir. Prezident kimi fəaliyyəti dövründə şanlı bayrağımızı

Xankəndi, Şuşa, Xocalı, Xocavənd və digər ərazilərdə ucaldan Prezident, Ali Baş Komandan İlham Əliyev xalqımızı bir daha qürurlandırdı, gənclərə müdriklik, qətiyyət, liderlik keyfiyyətləri aşıladı.

Cənab Prezident ölkə gəncliyinə mühüm töhfələrdən bəxş etmişdir. Azərbaycan gəncləri İlham Əliyevin liderliyi dövründə bütün sahələrdə mühüm nailllətlər qazanmışdır. Onlar daim dövlət başçısının qayğısını hiss edir və uğurlu fəaliyyət yolundan ilhamlanaraq gələcəyə doğru qürurla, inamla addımlayırlar.

İlham Əliyev həmişə təhsilə yüksək qayğı və diqqət göstərib. Onun prezident kimi fəaliyyəti dövründə Azərbaycandadavamlı dövlət dəstəyi sayəsində təhsilin maddi-texniki bazası möhkəmləndirilib, minlərlə məktəb yenidən tikilib və ya, əsaslı təmir edilib. Bu illər ərzində milli təhsilimizin səviyyəsi yüksəlmiş, eyni zamanda, elmi-texniki tərəqqi yüksək vüsət almışdır. Təhsildə müasirləşməni strateji hədəf kimi müəyyənləşdirən Azərbaycan dövləti milli təhsilimizi dünyanın qabaqcıl ölkələrinin təhsil sisteminin səviyyəsinə qaldıraraq, təhsili dövlət siyasətinin prioritetlərindən biri kimi müəyyənləşdirmişdir.

Respublikamızda dövlət başçısının siyasi iradəsinə uyğun olaraq qara qızılın insan kapitalına çevrilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi, gənclərin innovasiyalara, yeni texnologiyalara çıxış imkanlarının genişləndirilməsi məqsədilə böyük həcmli işlər görülüb. Cənab prezidentin dediyi kimi, Azərbaycan təhsili ən yüksək tələblərə cavab verməlidir. Bu, Prezident İlham Əliyev tərəfindən biz pedaqoqların qarşısına qoyulan

vəzifələrdir: "Təhsil sahəsində bu günə qədər aparılan islahatlar daha da dərinləşməlidir. Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir", - deyə dövlətimizin başçısı vurğulayıb. Azərbaycanın çoxminli pedaqoq ordusu hazırda qarşımızda duran bu vəzifələrin icrası istiqamətində gərgin və intensiv iş aparır. Çalışırıq ki, cənab prezidentin milli təhsilimiz qarşısına qoyduğu bu vəzifələri layiqncə yerinə yetirək. Ümidvarıq ki. əvvəlki illərdə olduğu kimi bundan sonra da milli təhsilimizin keşiyində layiqincə duracağıq. Bizə göstərilən etimada görə cənab Prezidentimizə, Azərbaycan xalqının əvəzedilməz lideri və Ali Baş Komandan İlham Əliyevə dərin təşəkkürümüzü bildiririk.

Biz çoxminli pedaqoq və müəllim ordusu ölkəmizin başçısı İlham Əliyevi prezident seçkilərində qələbə qazanması münasibətilə təbrik edir, ona Azərbaycanın inkişafındakı misilsiz xidmətlərinə görə dərin minnətdarlığımızı bildiririk.

# Bu diqqət və qayğını biz pedaqoqlar hər gün hiss edirik




***Nizami Rzayev,***
***Mir Cəlal Paşayev adına Gəncə şəhər 39 nömrəli tam orta məktəbin direktoru***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2024-cü il fevral aylnln 7-də keçirilən prezident seçkilərində inamlı qələbə qazandı və növbəti 7 il ərzində dövlətə rəhbərlik edəcəkdir. İstər onun president seçkilərində rəqibləri, istərsə də beynəlxalq müşahidəçilər kampaniyanın gedişi və səsvermə prosesi ilə bağlı heç bir şikayət bildirməyən Azərbaycan xalqının iradə ifadəsinin nəticələri ilə razılaşmalı oldular.

Artıq səhəri gün İlham Əliyev seçkilərdə qələbə münasibətilə dünya liderlərinin təbriklərini qəbul etdi. Dünyanın ən aparıcı dövlət və hökumət başçıları ona

təbrik teleqramları göndərib seçkilərdə qələbə qazanması münasibətilə onu təbrik etdilər.

HakimYeni Azərbaycan Partiyası öz namizədi və partiyanın lideri İlham Əliyevin qələbəsini elan etdikdən sonar xalq öz sevincini möhtəşəm atəşfəşanlıqla biruzə verdi. Seçkilərdən sonra bütün gecə Bakıda kütləvi şənlik davam etdi.

Xalqa müraciətində İlham Əliyevə göstərdiyi dəstəyə görə Azərbaycan xalqına təşəkkür edib və ölkənin mütərəqqi inkişafının heç vaxt dayanmayacağına söz verib.

Ən seçici xarici müşahidəçilərin belə Azərbaycandakı səsvermə ilə bağlı ciddi şikayətləri olmayıb.

“Mən seçki məntəqələrində olarkən şikayət edəcək bir şey görmədim.Azərbaycanda həmkarlarımla birlikdə yeni, postsovet demokratiyasının fəaliyyətdə olduğunu gördük və müasir, dinamik Avropa şəhəri olan Bakı bizi heyran etdi. Bu, azərbaycanlıların öz prezidentlərinə verdiyi dəstəkdir.”-Xarici siyasətçilər jurnalistlərə verdiyi müsahibələrdən birində qeyd edirdi.

-“Ölkəmizin hər bir bölgəsi inkişaf edir. Gənclər gələcəkdə elə işləməlidirlər ki, bu inkişaf dayanıqlı olsun, müstəqilliyimiz əbədi olsun. Ona görə bir daha demək istəyirəm-bunu nə qədər çox təkrarlasaq ziyanı yoxdur-bilik, savad, vətənpərvərlik, Vətənə bağlılıq və milli dəyərlər hər şeydən üstün olmalıdır. Bizi xalq kimi, millət kimi əsrlər boyu qoruyan, assimilyasiyadan qoruyan bizim dəyərlərimiz olub. Ana dilimiz, ədəbiyyatımız, incəsənətimiz və milli şüurumuz. Nə qədər ki, mən Prezidentəm, var gücümlə çalışacağam ki,

bu dəyərlər tam bərqərar olsun".-"İlham Əliyev.İnkişaf-məqsədimizdir" çoxcildliyinin çapdan çıxmış 101-ci kitabında yer alan bu fikirlər ölkə başçısının milli-mənəvi dəyərlərimizə, bu dəyərləri daşıyan insanlara, gələcəyimiz olan müasir gənclərə olan dərin diqqət və qayğısının təzahürüdür.

"Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir". Dövlət başçısının sözlərinə görə, təhsilin səviyyəsi ölkəmizin perspektivlərini müəyyən edəcək:-"Biz inkişaf etmiş ölkələrin təcrübəsini yaxşı bilirik və görürük ki, o ölkələr, sözün əsl mənasında, inkişaf edir ki, orada təhsilin səviyyəsi yüksəkdir. Biz çalışırıq ki, Azərbaycanda bu sahəyə daim diqqət göstərilsin, praktiki tədbirlər görülsün, həm təhsil sisteminin maddi-texniki bazası güclənsin, eyni zamanda və ən önəmlisi təhsilin keyfiyyəti artsın. Həm orta, həm də ali məktəblərdə bu proses ardıcıllıqla, vahid sistem şəklində aparılmalıdır və aparılır".

Bu gün müstəqil Azərbaycanda təhsil sistemində irimiqyaslı islahatlar prosesi artıq dönməz xarakter almış, Prezident İlham Əliyevin təhsil sisteminə diqqət və qayğısı sayəsində milli təhsil sisteminin aydın sabahını təmin edəcək İnkişaf Proqramları təsdiq olunaraq reallaşdırılmağa başlanmış, Azərbaycan təhsilinin davamlı inkişafına yönəlmiş əsaslı tədbirlər görülmüşdür. Bu tədbirlər içərisində təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi də prioritetlər sırasındadır. Artıq ölkəmizin bütün ali məktəblərində maddi-texniki baza möhkəmlənib, təmir,

yenidənqurma işləri aparılıb, lazımi avadanlıqlar əldə edilib. Bu gün də orta məktəblərdə analoji proseslər davam etməkdədir. Bu diqqət və qayğını biz pedaqoqlar Gəncə şəhərində fəaliyyət göstərən və yenidən tikilərək müəllim və şagirdlərin istifadəsinə verilən orta təhsil müəssisələrinin timsalında görə biliik. M.C.Paşayev adına Gəncə şəhər 39 nömrəli tam orta məktəb də bu diqqət və qayğıdan kənarda qalmamışıdır. Qeyd etmək lazımdır ki, 2004-cü il may ayının 10-da fəaliyyətə başlayan Heydər Əliyev Fondu ulu öndərin zəngin dövlətçilik irsinin bütün dünyada tanıdılması və təbliği istiqamətində ardıcıl iş aparmaqla yanaşı, cəmiyyətin hərtərəfli inkişafı üçün son dərəcə əhəmiyyətli olan bir sıra xeyirxah və nəcib layihələrin gerçəkləşməsində də yaxından iştirak edir, milyonlarla insanın inam və etimadını qazanır. Heydər Əliyev Fondunun təhsillə bağlı qarşıya qoyduğu əsas məqsəd Azərbaycanda bu sahənin qloballaşan dünyanın tələbləri səviyyəsində qurulmuş, milli təhsil modelinin gerçəkləşdirilməsinə zəmin formalaşdırmaqdan ibarətdir. Fond milli təhsil sisteminin inkişafı naminə hər il yeni-yeni işlərə imza atmaqdadır. Görülən işlər milli təhsilimizin inkişafına böyük töfhələr verməkdədir.

-“Bir daha demək istəyirəm ki, son illər Azərbaycanda bu sahədə dərinləşən islahatlar düzgün istiqamətdə aparılır. Biz bütün dünyada gedən prosesləri bilirik, izləyirik və ölkəmiz üçün ən məqbul variantı seçməklə təhsilimizin səviyyəsini artırmalıyıq”.-Dövlətimizin başçısı qeyd edib.

Dövlət başçısı çıxışlarında gənclərimizin milli dəyərlər əsasında qurulmuş azərbaycançılıq, müstəqillik ideologiyaları ilə dəstəklənməli olduğunu həmişə qeyd etmişdir:

-"Milli dəyərlərimiz bizim üçün hər şeydən üstündür. Məhz milli dəyərlərimiz, ənənələrimiz bizi əsrlər boyu assimilyasiyadan qoruyub. Biz müxtəlif imperiyaların, ölkələrin tərkibində yaşamışdıq, müstəqillikdən məhrum idik. Ancaq buna baxmayaraq, milli identikliyimizi saxlaya, qoruya bilmişik. Məhz ona görə ki, milli dəyərlərimizə münasibətimiz həmişə çox yüksək səviyyədə olmuşdur. Bu gün də gənc nəslin tərbiyə olunmasında, formalaşmasında və Azərbaycanın uzunmüddətli, dayanıqlı, müstəqil ölkə kimi yaşamasında milli dəyərlərə bağlılığımız müstəsna rol oynayır. Mən çox istəyirəm ki, bizim gənclərimiz yüksək peşəkarlıqla yanaşı, məhz milli dəyərlərimizi unutmasınlar". - Cənab Prezident qeyd etmişdir.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 20 il ərzində respublikada təhsilin inkişafı prioritet kimi daim diqqət mərkəzində saxlanılıb, təhsilin hərtərəfli inkişafına yüksək diqqəti nəticəsində ölkəmizdə müəllim nüfuzunun artırılması istiqamətində xeyli iş icra olunub. Biz bu diqqət və qayğını gündəlik həyatımızda, güclü əmək sərf etdiyimiz işimizdə dərindən hiss edir, ölkə başçısının bizlərə verdiyi bu dəyərli səmərəli işimizlə doğrultmağa çalışırıq.

# Prezident İlham Əliyev peşə təhsili pilləsinə xüsusi həssaslıqla yanaşır



"Mən çox istərdim ki, bizim kadrlarımız da yetişsin və həm Azərbaycanda, həm də başqa ölkələrdə azərbaycanlı kadrlar yüksək vəzifələrdə işləsinlər. Ona görə peşə məktəblərinin bu sahədə çox böyük əhəmiyyəti var. Əlbəttə ki, burada da, ilk növbədə, ümumi inkişaf meyilləri nəzərə alınmalıdır, hansı peşələr bizə nə vaxt lazım olacaq. Misal üçün, bu gün ölkəmizdə kənd təsərrüfatının inkişafının sürəti çox yüksəkdir və bilirəm ki, bu sahəyə maraq artır. Ona görə bu sahə üzrə peşə məktəbləri olmalıdır. Turizm, menecment sahələrinin, texniki peşələrin müasir standartlara cavab verməsi üçün addımlar atılmalıdır. Odur ki, peşə məktəblərinin gələcək inkişafı daim diqqət mərkəzində olmalıdır."

# İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz dünyada mövqelərini daha da möhkəmləndirmiş və yüksək nüfuz sahibi olmuşdur



*Şahin Məhərrəmov,*
*Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzinin direktoru*

2024-cü il 7 fevral Prezident seçkilərində cənab İlham Əliyevin inamlı qələbə qazanması bütün Azərbaycan xalqı kimi biz pedaqoqları da sevindirdi. Həmin gün Azərbaycan xalqı və dünya azərbaycanlıları öz tarixi seçiminə imza atdılar. Bununla xalqımız Azərbaycan Prezidentinə öz sevgisini göstərdi.

Respublikamızın başçısı kimi bu 20 illik fəaliyyətində cənab Ilham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar uğurlu nəticələr verərək iqtisadi inkişafa səbəb olmuş, ölkəmizin qüdrətli iqtisadi dayaqları üçün əsaslar yaratmışdır. Bütün sahələrdə

olduğu kimi, Azərbaycan iqtisadi sahədə də dünya iqtisadiyyatına inteqrasiya etmiş, dövlətlərarası münasibətlərin fəal subyektinə çevrilmiş, dünya miqyasında layiqli yerini tutmuşdur.

Ulu Öndərin milli maraqlara əsaslanan çoxşaxəli inkişaf strategiyası bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 20 il bundan əvvəl Azərbaycan xalqının cənab İlham Əliyevə etimad göstərməsindən sonra həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoyub. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ötən müddət ərzində qarşıya qoyduğu bütün strateji məqsədlərə nail olub. Bu dövrdə nəhəng transmilli enerji layihələri həyata keçirilib, ölkənin hər yerində möhtəşəm abadlıq-quruculuq işləri aparılıb, insanlarımızın rifah səviyyəsi qat-qat yüksəlib, Azərbaycanın dünyada tanınması və yüksək nüfuz sahibi olması istiqamətində fundamental addımlar atılıb. Eyni zamanda, ötən müddət ərzində dövlət başçısının siyasi iradəsi əsasında bütün sahələrdə sistemli, kompleks xarakterli, fundamental islahatların həyata keçirilməsi Azərbaycanın qüdrətinin daha da artmasını təmin edib. Rasional və praqmatik xarici siyasət Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanın strateji tərəfdaşlıq əlaqələrinin güclənməsini, dostlarının və tərəfdaşlarının sayının mütəmadi olaraq artmasını təmin edib. Ötən müddət ərzində regional güc mərkəzinə çevrilən Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınıb. Eyni zamanda, respublikamız xarici siyasətində milli maraqlar və

beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürərək beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kursun ən mühüm prioritetlərindən biri olan ordu quruculuğu istiqamətində görülən işlərin nəticəsində Azərbaycan Ordusu bu gün dünyanın ən güclü orduları sırasında yer alıb. Və nəhayət bütün bu proseslərin məntiqi nəticəsi olaraq Azərbaycan Ordusu Vətən müharibəsində və Azərbaycanın 19-20 sentyabr tarixində Qarabağda həyata keçirdiyi antiterror tədbirlərində parlaq tarixi Qələbə əldə edərək ölkəmizin ərazi bütövlüyünü təmin edib. Azərbaycan bu inamlı qələbəsilə öz gücünü bütün dünyaya nümayiş etdirdi.

Heç bir şübhə yoxdur ki, ölkəmizin hərtərəfli inkişafı üçün dövlətimizin başçısı tərəfindən hazırda inamla inkişaf etdirilən strateji istiqamətlər hələ uzun illər müstəqil dövlətimizin daha da möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın rifah səviyyəsinin daha da yüksəldilməsi işinə xidmət edəcək.

Müstəqil və qüdrətli Azərbaycan dinamik, davamlı və hərtərəfli inkişafa malikdir. İlham Əliyevin alternativi olmayan məqsədyönlü siyasi kursu sayəsində müstəqilliyimiz əbədi və dönməz xarakter alaraq güclənmişdir. Hazırda əldə edilən nəhəng uğurlar və möhtəşəm nailiyyətlər İlham Əliyevin hərtərəfli inkişaf strategiyasının təntənəsidir. Dövlətçiliyimizi möhkəm təməllər üzərində quran, ictimai həyatın bütün

sferalarının, o cümlədən iqtisadiyyat, müdafiə, təhsil, səhiyyə, mədəniyyət və incəsənət sahələrinin inkişafında müstəsna xidmətlər göstərən İlham Əliyev Azərbaycanın quruculuq salnaməsində silinməz izlər qoymuşdur.

Rəhbəri olduğum Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində Respublikamızın Prezidenti İlham Əliyevin siyasi fəaliyyətinin öyrənilməsi və təbliği sahəsində ideoloji maarifləndirmə tədbirləri silsilə şəklində keçirilməkdədir. Bu tədbirlərdə bütün müəllim və tələbə heyəti fəal iştirak etmiş və məruzələrlə çıxış etmişlər. Məruzələrdə cənab prezidentin hərtərəfli və dayanıqlı sosial-iqtisadi inkişaf strategiyasından və onun uğurla reallaşdırılmasında göstərdiyi misilsiz və müstəsna xidmətlərdən, regionda sülhün, təhlükəsizliyin və tərəqqinin möhkəmlənməsinə, ölkəmizin siyasi və iqtisadi müstəqilliyinin gücləndirilməsinə hədəflənən məqsədyönlü, uzaqgörən və qətiyyətli siyasətindən bəhs edilmişdir. Qeyd edilmişdir ki, hazırda siyasi-iqtisadi kursu müasir dövrün tələblərinə uyğun uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz dünyada mövqelərini daha da möhkəmləndirmiş və regionda lider dövlətə çevrilmişdir.

Ölkəmizin son illərdə qazandığı uğurlara həsr olunmuş müsabiqə və sərgilərə şagirdlərimiz də fəal surətdə qatılmışdır. Bu tədbirlər gəncləri milli vətənpərvərlik, mədəniyyətimizə, incəsənətimizə, milli adət-ənənələrimizə hörmət ruhunda hazırlamaq məqsədilə keçirilir. Bu tədbirlərdə gənclər bədii qiraət, musiqi və rəqs bacarıqlarını nümayiş etdirmişlər. Bununla yanaşı,

təhsilalanlar arasında inşa, şeir və rəsm müsabiqəsi də təşkil edilməkdədir.

Bu tədbirlərin reallaşdırılması gənclərin hərtərəfli inkişafı və vətənpərvərlik ruhunda yetişdirilməsi işlərinə misilsiz töhfələr verir.

# Prezident İlham Əliyevin rəhbərliyi dövründə peşə təhsili pilləsinin inkişafı əsas prioritetə çevrilib



***Azər Rüstəmov,***
***Ticarət və Xidmət üzrə***
***Gəncə Dövlət Peşə Təhsil Mərkəzinin direktoru***

2024-cü il fevralın 7-də keçirilən prezident seçkilərində İlham Əliyev inamlı qələbə qazanaraq növbəti müddətə dövlət başçısı seçildi. O bu qələbəsi ilə şəxsi nümunənin ən mükəmməl əyani vəsait olduğunu bir daha xatırlatdı. Onun parlaq qələbəsi xalqın öz liderinə sarsılmaz inamından qaynaqlanır. O, xalqın və ölkənin taleyi üçün məsuliyyət daşıyan böyük bir dövlət xadimi olduğunu bir daha təsdiq etdi.

Prezident seçkiləri ölkə tarixində dönüş nöqtəsi, hər bir vətəndaşın respublikanın taleyinin müəyyən edilməsinə

cəlb olunmasının rəmzi kimi xarakterizə edilir. İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi Azərbaycanın yeni inkişafı, yüksəlişi, ölkəmizdəki sabitliyin, əmin-amanlığın qorunub saxlanılması, hər bir Azərbaycan vətəndaşının öz gələcəyinə ümidlə baxması deməkdir. Buna görə də bütün Azərbaycan xalqı bu qələbəni hamılıqla bayram edir. Azərbaycan ziyalıları bu gün xüsusi qurur və sevinc hisslərini yaşamaqdadır.

İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi bu illər Azərbaycanın qazandığı böyük uğurlar və nailiyyətlər illəri kimi yadda qalıb. Azərbaycan xalqının sosial və iqtisadi rifahı dövlətimizin təşəbbüsləri sayəsində xeyli yaxşılaşıb, respublikamız üçün Qələbə ilə başa çatan müharibə nəticəsində Azərbaycan bu gün ərazisi işğal altında olmayan bir ölkədir. Bu fakt insanların seçkilərdə ruh yüksəkliyinə ciddi təsir edib. Həmin gün seçicilərin yüksək fəallığı da xalqın siyasi, iqtisadi və sosial rifahını təmin edəcək səmərəli dövlət idarəçiliyinə marağı ilə əlaqədardır.

Azərbaycanda hər bir sahədə müşahidə olunan inkişaf tendensiyası təhsil sektorunda xüsusilə diqqəti cəlb edir. Bu inkişafın əsasında dövlətimizin təhsil siyasətinin strateji kursu dayanır. Bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Dövlət başçısının diqqət və qayğısı ölkəmizdə milli kadr potensialının kəmiyyət və keyfiyyət baxımından yetişdirilməsi və təkmilləşdirilməsi işinə mühüm töhfələr verir.

Milli təhsil sisteminin tərkib hissəsi olan Peşə təhsili sahəsində başlanan islahatın nəticələri artıq öz bəhrələrini

verməkdədir. Prezident İlham Əliyevin rəhbərliyi dövründə peşə təhsili pilləsinin inkişafı əsas prioritetə çevrilib və insan kapitalının inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Ölkə başçısı cənab İlham Əliyevin 3 iyul 2007-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)" imzalanmışdır. Ölkə başçısının fərman və sərəncamları ilə 2016-cı ildə Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsinin təsdiq edilməsi, Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması, 2018-ci ildə Peşə Təhsili haqqında Qanunun təsis edilməsi, elə həmin ildə Dövlət ilk peşə-ixtisas təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin dərs yükünün və əməkhaqlarının, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin isə əməkhaqlarının artırılması dövlətin Peşə təhsili və təliminə diqqət və qayğısının bariz nümunəsidir.

Peşə təhsili ümumi təhsilin tərkib hissəsi olmaqla ölkənin sosial-iqtisadi inkişafına təkan verən aparıcı sahələrdən biridir. Azərbaycan bu gün peşə təhsilinin inkişafının yüksəliş dövrünü yaşamaqdadır. İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi bu illər ərzində texniki peşə təhsili sistemi sürətlə inkişaf etməyə başlamışdır. Cənab Prezident peşə təhsili pilləsinə xüsusi həssaslıqla yanaşır.

Azərbaycan Respublikası prezidenti İlham Əliyevin yüksək diqqəti və məqsədyönlü göstərişləri əsasında atılan addımlar, icra edilən dövlət proqramları təhsil

sistemində keyfiyyətcə yeni inkişaf meyllərinin əldə edilməsinə, yüksək nəticələrin qazanılmasına xidmət etmişdir. Bu isə ölkəmizdə milli kadr potensialının yetişdirilməsi və təkmilləşdirilməsi işinə mühüm töhfələr vermişdir. Məhz İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə təhsilin təkmilləşdirilməsi, inkişafı uğurla həyata keçirilmişdir. Bu gün təhsil siyasəti ölkənin strateji hədəflərində ön sıralarda yer alır, ölkəmizin inkişaf konsepsiyasının mühüm tərkib hissəsi kimi qəbul edilir.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə peşə təhsili pilləsinin inkişafı əsas prioritetə çevrilib və insan kapitalının inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil etmişdir. Artıq Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinə tabe olan Peşə Təhsili Müəssisələri (PTM) beynəlxalq əməkdaşlıqlar mərhələsinə başlamışdır. Ölkə PTM-ləri kadr hazırlığı ilə əlaqədar Türkiyə, İngiltərə, Almaniya, Cənubi Koreya, Sinqapur və s. ölkə PTM-ləri ilə əməkdaşlıq protokolları imzalayır və onların təcrübələrindən yararlanır. Ölkə PTM-lərinin Beynəlxalq Müsabiqələrində iştirakı təmin olunur.

Ölkə başçısı bu barədə çıxışında deyir: “Mən çox istərdim ki, bizim kadrlarımız da yetişsin və həm Azərbaycanda, həm də başqa ölkələrdə azərbaycanlı kadrlar yüksək vəzifələrdə işləsinlər. Ona görə peşə məktəblərinin bu sahədə çox böyük əhəmiyyəti var. Əlbəttə ki, burada da, ilk növbədə, ümumi inkişaf meylləri nəzərə alınmalıdır, hansı peşələr bizə nə vaxt lazım olacaq. Misal üçün, bu gün ölkəmizdə kənd təsərrüfatının inkişafının sürəti çox yüksəkdir və bilirəm

ki, bu sahəyə maraq artır. Ona görə bu sahə üzrə peşə məktəbləri olmalıdır. Turizm, menecment sahələrinin, texniki peşələrin müasir standartlara cavab verməsi üçün addımlar atılmalıdır. Odur ki, peşə məktəblərinin gələcək inkişafı daim diqqət mərkəzində olmalıdır."

Bu gün ölkəmizdə yüzlərlə beynəlxalq standartlara cavab verən peşə təhsili üzrə müəssisələr tikilib, təmirə ehtiyacı olan binaların əksəriyyəti əsaslı təmir olunub. İnanırıq ki, Azərbaycan Respublikası Prezidentinin peşə təhsilinə olan diqqətinin nəticəsi olaraq bu pillə üzrə təhsil alan tələbə ixtisasına dərindən yiyələnmiş səriştəli, fəal, rəqabət qabiliyyətli peşəkarlar yetişəcək və ölkəsinə öz işi ilə töhvə verəcəkdir.

Biz peşə təhsilinin müasir tələblərə uyğun təşkil edilməsi üçün var gücümüzü sərf edir, bu yolda bilik və bacarığımızı əsirgəmir, bu bilik və təcrübəni yenilənən tələblər çərçivəsində peşə təhsili alan yetirmələrimizə ötürürük.

# Prezident İlham Əliyev: "Bizim görkəmli idmançılarımızın uğurları və nümunəsi bütün gənc idmançılar üçün örnək olmalıdır".



"Gənc idmançıların hazırlanması əlbəttə ki, mütəşəkkil qaydada təmin edilməlidir. Son vaxtlar bu sahədə daha məqsədyönlü fəaliyyət də göz önündədir, xüsusilə seleksiya işləri. Bölgələrdə keçirilmiş çoxsaylı tədbirlər gəncləri, uşaqları, yeniyetmələri idman bölmələrinə cəlb etmək üçün daha böyük imkanlar yaradacaq.

Son bir neçə il ərzində bütün ölkə üzrə müxtəlif yarışlar keçirilmişdir, mən bunu çox yüksək qiymətləndirirəm. Gənclər və idman naziri qarşısında qoyulan vəzifələrdən biri də məhz bu idi ki, bölgələrdə idman canlansın və bir çox yarışlar keçirilsin. Bu siyasət həm idman uğurlarımızı şərtləndirəcək, eyni zamanda, gənclər, yeniyetmələr, uşaqlar gənc, uşaqlıq yaşlarından idmana cəlb ediləcək və bunun onların tərbiyəsi üçün çox böyük əhəmiyyəti var".

# Azərbaycan idmanı da ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edəcəkdir



***Asif Həsənov,***
***Gəncə şəhər 2 nömrəli Uşaq - Gənclər İdman-Şahmat Məktəbinin direktoru, Əməkdar bədən tərbiyəsi və idman xadimi.***

2024-cü il fevralın 7-də ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı İlham Əliyev xalqımızın etimadını qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçildi və bununla da ölkəmizin inkişafında yeni bir mərhələ başlandı. Həmin gün Azərbaycan xalqı sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını göstərdi.

Ötən dövrlərdə Cənab prezident İlham Əliyevin rəhbərlıiyi altında Azərbaycanda bütün istiqamətlərdə

böyük inkişafın müşahidə edilməsi, ölkəmizin bölgədə və dünyada mövqelərini gücləndirməsi ilə müşahidə olundu. Müstəqilliyimizin və ideoloji dayaqlarımızın daha da möhkəmləndirilməsinin, vətəndaş həmrəyliyinin bərqərar olmasının təməlində isə Azərbaycan dövlətinin milli maraqlarının qorunması dayandı. Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırdı. Azərbaycan beynəlxalq müstəvidə layiqli yerini möhkəmləndirdi.

Prezident İlham Əliyev güclü iradəsi, liderlik keyfiyyətləri ilə milyonları ətrafına toplayaraq müstəqil və güclü Azərbaycan uğrunda çalışır. Ali Baş Komandan xalqdan aldığı tükənməz gücü isə öz işgüzar, tarixi və geniş fəaliyyəti ilə xalqa qaytarır.

Ölkə prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz illərdir işğal altında olan topraqlarımızı düşməndən azad etdi, Azərbaycanın ərazi bütövlüyünü təmin etdi. Dövlət başçısının qeyd etdiyi kimi, həmin ərazilərimiz, şəhər və kəndlərimiz yenindən qurulacaq, Qarabağ torpağında həyat canlanacaq. Sözsüz ki, işğaldan azad olunmuş ərazilərdə geniş idman infrastrukturu da yaradılacaq, Qarabağımızda beynəlxalq idman yarışları təşkil olunacaqdır. Əminliklə demək olar ki, Azərbaycan idmanı da ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edəcək, bütün sahələrdə yeni-yeni naliyyətlər qazanılacaqdır.

Böyüməkdə olan nəsli pis vərdişlərdən çəkindirmək, idman vasitəsilə onları layiqli vətəndaşlara çevirmək hakimiyyətdə olduğu bütün illərdə Ümummilli Liderimiz Heydər Əliyevin idman siyasətinin əsasını təşkil edib. Bu

uğurlu yol hal-hazırda da milli idmanımızın hamisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilir. Dövlət Başçısının diqqət və qayğısı, bilavasitə nəzarəti altında ölkənin ən ucqar bölgələrində belə yeni idman kompleksləri inşa olunur. Bu da perspektivli gənclərin üzə çıxarılmasında əhəmiyyətli rol oynayır və bununla yanaşı bir çox qitə və dünya çempionatlarının, beynəlxalq turnirlərin Respublikada keçirilməsinə əlverişli şərait yaradır.

Bu gün Azərbaycan dünyanın istər siyasi, istərsə də iqtisadi sistemində özünəməxsus yeri ilə seçilir, ölkəmizlə hesablaşır, hörmət və ehtiramla yanaşırlar. Azərbaycan bu nailiyyəti güclü liderin - Prezident İlham Əliyevin qətiyyəti sayəsində əldə edib. Başqa fəaliyyət sahələrində olduğu kimi, Azərbaycan idmanda da böyük uğurlar qazanıb, sürətli inkişaf dövrünü yaşayır. Azərbaycanın modern idman infrastrukturuna malik ölkə olması hər kəsin qəbul etdiyi reallıqdır. Bu fikri Bakıda nüfuzlu beynəlxalq yarışların təşkilinin ənənəyə çevrilməsi bir daha təsdiqləyir.

Respublikamızın Prezidenti Cənab İlham Əliyevin gənclərin məşğul olduğu pesə sahələrinə, xüsüsi ilə idmana göstərdiyi diqqət və qayğının nəticəsidir ki, bu gün ölkə idmançılarımız Beynəlxalq yarışlarda yuksək nətiçələr əldə ediblər, dövlət bayrağını yuxarılara qaldıraraq dünyanın müxtəlif ölkələrində Azərbaycanımızı layiqincə təmsil edirlər.

Ölkəmiz beynəlxalq idman yarışlarının keçirildiyi bir məkandır. İdmanın müxtəlif növlərinin inkişafına dair

Respublika Prezidenti tərəfindən imzalanmış Dövlət Proqramları icraçılardan idmanın müvafiq növünə kompleks yanaşmanı tələb edir. Nəticə etibarilə hal-hazırda idmanın bütün növləri ölkəmizdə özünün yüksək inkişaf mərhələcini yaşayır. Respublikaya axan qızıl, gümüş və bürünc medalların, idman titullarının sayı gündən-günə artmaqda davam edir. Vətənə medallarla dönən həmvətənlərimiz sırasında Gəncə idmançılarının da adı vardır. Heç şübhəsiz ki, belə idmanşıların yetişməsində şəhərimizdə idmana göstərilən diqqət və qayğı, idmanla müntəzəm məşğul olmaq üçün yaradılan şərait mühüm rol oynayır. Minnətdarlıq hissi ilə bildiririk ki, dövlətimizin rəhbərliyi tərəfindən idmançılarla keçirilən görüşlər, ümumrespublika miqyaslı tədbirlərdə onların mükafatlatlandırılası, sosial məsələlər istiqamətində görülmüş işlər yeniyetmələrin idmana kütləvi formada cəlb olunmasına stimul verir.

Hər ildə olduğu kimi, 2023-cü il də başçılıq etdiyim Gəncə şəhər 2 nömrəli Uşaq-Gənclər İdman-Şahmat Məktəbi üçün idman sahəsində uğurlu olmuşdur. Məktəbimizin idmançıları bir çox mötəbər yarışlarda uğurlu nəticələr əldə etmişlər. Bunlar da, idmançılarımız üçün yaradılan şəraitin bariz nümünəsidir.

Məktəbimizin idmançıları idmana göstərilən yuksək diqqət və qayğıya görə Respublika Prezidentinə və şəhər rəhbərliyinə öz minnatdarlıqlarını bildirir və bundan sonra da respublikamızın idman şərəfini layiqinçə təmsil edəcəklərini bildirirlər.

# Cənab Prezidentin təhsilə və idmana olan tükənməz qayğısı sayəsində Azərbaycan idmanı yüksək inkişaf səviyyəsinə çatmışdır



***Mehman Allahverdiyev,***
***Gəncə İdman Liseyinin direktoru, Azərbaycan Respublikasının Əməkdar məşqçisi, Respublikanın Fəxri Bədən Tərbiyəsi və İdman işçisi.***

İlham Əliyevin Azərbaycanda təhsilin inkişafı, bu sahədə islahatyönümlü tədbirlərin durmadan həyata keçirilməsi, milli təhsilimizin qabaqcıl ölkələrin mütərəqqi təhsil sistemlərinə inteqrasiyası üçün atdığı addımlar əməli işdə özünü doğrultmaqdadır. Bu gün Azərbaycan təhsili özünün yüksək inkişaf dövrünü yaşamaqdadır.

Cənab Prezidentin təhsilə və idmana olan tükənməz qayğısı sayəsində Azərbaycan idmanı da yüksək inkişaf səviyyəsinə çatmışdır. Onun ölkəmizin prezidenti olduğu

bu illər ərzində ölkəmizin bütün bölgələrində idmanın inkişafına təkan verən və dünya standartlarına cavab verən idman kompleksləri tikilib istifadəyə verilmişdir. Onun rəhbəri olduğu Milli Olimpiya Komitəsinin səmərəli fəaliyyətinin nəticəsidir ki, indi Azərbaycan idmançıla-rının qələbə sorağı Olimpiya Oyunlarından, Dünya və Avropa çempionatlarından gəlir.

Son illər idmanın bütün növlərinin inkişafına ciddi fikir verilir. Respublikamızda idmana olan dövlət qayğısı nəticəsində bir sıra idman növləri üzrə əldə olunmuş yüksək nailiyyətləri nəzərə alaraq, idmana dövlət qayğısı artırılmış, onun maddi-texniki bazası inkişaf etdirilmiş, yeniyetmə və gənclərin sağlam həyat tərzinə maraq yüksəlmişdir. İlham Əliyevin hakimiyyətdə olduğu 20 il ərzində idman sahəsinə dövlət tərəfindən xüsusi qayğı daha da artırılmışdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda idmanın inkişafı istiqamətində ciddi tədbirlər həyata keçirilmiş, bu sahə dövlət siyasətinin prioritetləri sırasında mühüm yerlərdən birini tutmuşdur. Ölkəmizdə idmanın inkişafına olan qayğı tək olimpiya idman növlərini deyil, qeyri-olimpiya idman növlərini də əhatə edir. Bu sahəyə olan diqqət və qayğı nəticəsində idmanın bütün sahələrinə olduğu kimi milli futbolumuzun inkişafına da xüsusi diqqət artırılmışdır.

Hələ illər əvvəl Dövlət proqramında futbolun ölkədə inkişafının əsas istiqamətləri müəyyən olunmuş və Azərbaycan Respublikası Təhsil Nazirliyi Gəncə 1 saylı Əsas İnternat Məktəbinin bazasında Futbol Təmayüllü İnternat Tipli Gimnaziya yaradılmış və 2009-2010-cu tədris ilindən fəaliyyətə başlamışdır. Hal-hazırda təhsil

ocağı Gəncə İdman Liseyi adı ilə fəaliyyətini davam etdirir.

Əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyası möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilir. Dövlət başçısı cənab İlham Əliyevin və birinci vitse-prezident Mehriban xanım Əliyevanın təhsilimizə göstərdikləri diqqət və qayğının nəticəsi olaraq yeni məktəblərin inşası, o cümlədən ümumtəhsil məktəblərinin əsaslı təmiri, maddi-texniki bazasının möhkəmləndirilməsi, təhsilin infrastrukturunun yenidən qurulması təlim-tərbiyə şəraitinin, təhsilin keyfiyyətinin yaxşılaşmasına, pedaqoji kollektivlərdə iş əzminin yüksəlməsinə müstəsna dərəcədə əhəmiyyətli təsir göstərmişdir.

Bu gün Respublikamızın təhsil ocaqları dövlətimizin xüsusi diqqət və qayğısı ilə tam əhatə olunmuşdur. Dövlətimizin milli təhsilimizin inkişafı və gənc nəslin təlim-tərbiyəsi yolunda atdığı əməli addımların rolu əvəzsizdir. Bu qayğını daim hiss edən təhsil işçiləri onlara göstərilən bu etimada öz səmərəli işi və qazandıqları uğurları ilə cavab verir. Gəncə şəhərində fəaliyyət göstərən orta təhsil ocaqları da təhsildə əldə etdikləri nailiyyətlər ilə  xüsusilə seçilirlər. Bu təhsil ocaqlarından  biri də Gəncə İdman liseyidir.

Artıq illərdir ki, dərs ilinin başlanması ilə əlaqədar ölkəmizdə bir çox yeni məktəb binaları tikilib, yaxud əsaslı təmir edilərək, şagirdlərin istifadəsinə verilməsi bir ənənə halını alıb. Bunların sırasında Gəncə Idman Liseyi də vardır. Şagirdlərin standartlara uyğun, yüksək maddi-

texniki bazaya sahib sinif otaqlarında təhsil alması onların inkişafı üçün vacib amillərdəndir. Gəncə İdman Liseyinin tədris binası da əsaslı təmir edilərək, şagirdlərin istifadəsinə verilibdir. 15 sentyabr - Bilik Günündə Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Təhsil naziri Emin Əmrullayev, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov liseyimizin qonağı olub, daha sonra Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə yenidən qurulan İdman Liseyinə baxış keçirilib. İdman liseyində foyedə ümummilli lider Heydər Əliyevin və onun siyasi kursunun layiqli davamçısı İlham Əliyevin Azərbaycan idmanının inkişafına göstərdiyi diqqət və qayğını özündə əks etdirən fotoguşə təqdim edilib.

İdman liseyinin dördmərtəbəli yeni binası Heydər Əliyev Fondu tərəfindən inşa olunub. 360 yerlik liseydə 18 sinif otağı var. Yeni istifadəyə verilən təhsil müəssisəsində güləş zalı, futbol, basketbol meydançaları, akt zalı və yeməkxana fəaliyyət göstərir. Bir sözlə, idmanın və təhsilimizin inkişafı üçün bu təhsil ocağında dövlətimiz tərəfindən hər cür şərait yaradılmışdır.

Bütün bunlar şagirdlər ilə söhbətlərdə, liseydə təşkil etdiyimiz tədbirlərdə dəfələrlə iştirakçıların, müəllim və şagirdlərin nəzərinə çatdırılır. Gəncə İdman Liseyi tədris ili boyunca bu sahədə ideoloji maarifləndirmə tədbirləri təçkil etməkdədir. Liseyin rəhbərliyinin təşkilatçılığı ilə tədbirlərə liseyin müəllim - şagird kollektivi fəal qatılmışdır.

Biz görülən bu işlərlə gənclərimizin milli vətənpərvərlik ruhunda tərbiyəsini təmin edir, onları Dövlətimizə və Prezidentimizə hörmət və məhəbbət ruhunda tərbiyə edirik.

Ölkə prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz illərdir işğal altında olan topraqlarımızı düşməndən azad etdi, Azərbaycanın ərazi bötövlüyü təmin edildi. Dövlət başçısının qeyd etdiyi kimi, həmin ərazilərimiz, şəhər və kəndlərimiz yenindən qurulacaq, Qarabağ torpağında həyat canlanacaqdır. Sözsüz ki, işğaldan azad olunmuş ərazilərdə geniş idman infrastrukturu da yaradılacaq, Qarabağımızda beynəlxalq idman yarışları təşkil olunacaqdır. Əminliklə demək olar ki, Azərbaycan idmanı ölkə başçısı, ölkəmizin prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edəcək, idmançılarımız yeni-yeni naliyyətlər qazanacaqdır.

# Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevlə qürur duyuruq



***Urfan Haqverdiyev,***
***Gəncə-Daşkəsən Regional Gənclər və İdman İdarəsinin nəzdində UGİM-in məşqçi-müəllimi, Gəncə İdman Liseyinin Azad Həmkarlar İttifaqının sədri***

2024-cü il fevralın 7-də keçirilən növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində seçicilərin böyük faiz səsini qazanan İlham Əliyev növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi. Xalq bununla özünün işıqlı gələcəyinə səs verdi.

Ölkəmizdə olan əmin-amanlıq, iqtisadi inkişaf, müxtəlif sahələr üzrə əldə edilən uğurlar cənab İlham Əliyevin rəhbərliyi altında əldə edilmişdir. Onun Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyət göstərdiyi bu illər ərzində ölkəmizdə böyük miqyaslı işlər görülüb. Bütün bunlar ölkə iqtisadiyyatının durmadan inkişafına, xalqımızın maddi rifahının yüksəldilməsinə xidmət etmişdir. Bu uğurlar, əlbəttə ki, bizi sevindirir.

Bundan irəli gəlir ki, insanlar gələcəyə daha inamla baxır, dövlətçiliyimizin qüdrətlənəcəyinə və xalqımızın rifahının daha da yüksələcəyinə inamını heç vaxt itirmir. Cənab Prezidentin hakimiyyətdə olduğu bu 20 ilin zirvəsində isə təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi olmuşdur. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazılmışdır. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrilmişdir. Dövlət başçısının 2021-ci il iyulun 7-də imzaladığı "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" tarixi Fərmanla Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının yaradılması Vətən müharibəsinin yekunu olaraq ərazi bütövlüyümüzün və suverenliyimizin daha bir təzahürü, ölkədə həyata keçirilən sosial-iqtisadi islahatların keyfiyyətcə yeni mərhələyə qədəm qoymasının təsdiqidir.

Günbəgün gözəlləşən ölkəmiz çiçəklənir. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir, Qarabağda bərpa-quruculuq fəaliyyəti tam gücü ilə davam edir və sosial proqramlar həyata keçirilir. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan tezliklə Qarabağı cənnətə çevirəcək və öz ata-baba yurdlarından didərgin düşən keçmiş məcburi köçkünlər təhlükəsiz şəkildə evlərinə əbədi olaraq qayıdacaqlar. İnkişaf edən xalqımız bundan da gözəl həyata layiqdir. Və bunun əldə edilməsi üçün dövlətimiz var gücünü əsirgəmir. Hal-hazırda

dövlətimizin daxili və xarici siyasəti bu mühüm vəzifələrin həllinə yönəlib.

Ötən 20 ildə Azərbaycan xalqı həmişə öz liderinə güvənib və inanıb, ona arxa və dayaq olub. Prezidentimizin özünün də böyük fəxrlə qeyd etdiyi kimi, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Xalqımız ölkənin yüksələn rifahı, dövlətin təhlükəsizliyi və beynəlxalq arenada nüfuzunun yüksəldilməsi sahəsində həyata keçirdiyi titanik işlərə görə dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq edir, onunla qürur duyur.

Dövlətimizin atdığı mütərəqqi addımlar ölkəmizdə təhsil sisteminin inkişafındakı prioritet istiqamətlərin həyata keçirilməsini də uğurla təmin etmişdir. Təhsildə qazanılan uğurlar ilk növbədə ölkə başçı cənab İlham Əliyevin təhsilə isti münasibətindən, bu sahəni prioritet sahə hesab etməsindən, gündəlik diqqət və qayğısından qaynaqlanır. Milli təhsilimizin bütün sahələr üzrə inkişafı ilə bağlı qəbul olunan dövlət proqramları, təhsil ocaqlarında aparılan quruculuq işləri təhsilimizin inkişafına böyük yol açmışdır. İnanırıq ki, təhsilə bu cür münasibət bundan sonra da uğurlarımızı daha da artıracaqdır. Bu, öz növbəsində ölkəmizin inkişafı üçün çalışan biz təhsil işçilərinin də qarşısında böyük vəzifələr qoyur. Biz bunun məsuliyyətini anlayır, milli təhsilimizin daha da inkişafı yolunda var gücümüzü əsirgəmirik. Təhsil sistemində aparılan islahatların həyata tam keçirilməsi üçün biz təhsil işçiləri qarşımıza qoyulan vəzifə və tapşırıqların icrasına xüsusi diqqət yetiririk.

# M Ü N D Ə R İ C A T

Ön söz .......................................................................... *3*
Zəfər təntənəsi: Xalq-Lider birliyinin möhtəşəm ifadəsi!..................................................................5
Prezident İlham Əliyevin seçkilərdə parlaq qələbəsi xalqın öz liderinə sarsılmaz inamından qaynaqlanır......13
XXI əsrin milli lideri - İlham Əliyev............................22
Növbədənkənar Prezident seçkilərində göstərilən həmrəylik cəmiyyətimizi bir qaya kimi daha da möhkəmləndirdi.........................................................24
Azərbaycan, yeni inkişaf, yüksəliş dövrünün qədəmləri xeyirli olsun!..............................................................27
Uğurlarımızın əsas hərəkətverici qüvvəsi İlham Əliyev cənablarıdır.............................................................30
Zəfər seçkilərindən yeni hədəflərə doğru ...................35
Ölkə Prezidenti cənab İlham Əliyevin siyasət kursu bütün uğurlarımızın əsasında durur.....................................39
Yeni zirvələri məhz İlham Əliyevin Liderliyi ilə fəth edə bilərik..............................................................44
7 fevral dərsləri - El gücü, sel gücü...........................51
Xalq Azərbaycana inkişaf və Zəfər bəxş edən siyasi kursu seçdi..............................................................55
Prezident İlham Əliyev: "Azərbaycanın zəngin və təkrarolunmaz mədəniyyəti bizim qürur mənbəyimizdir"........................................................58
Ölkəmiz İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla irəliləyəcək..................................................59

Prezident İlham Əliyev: Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir............................................64
Prezident İlham Əliyevin siyasi, iqtisadi, mədəni və sosial siyasətini fəal şəkildə dəstəkləyirik.......................65
Prezident İlham Əliyevin apardığı sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır....................71
Azərbaycan xalqı öz prezidenti ilə fəxr edir...................76
Prezident İlham Əliyev: “Hər bir cəmiyyətdə, əlbəttə, o cümlədən Azərbaycanda da həmkarlar ittifaqının rolu artır”...................................................................................79
İlham Əliyev yolu Azərbaycan xalqını xoş gələcəyə aparan nurlu yoldur......................................................80
Prezident İlham Əliyev: “Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir”.............................................................86
Dövlətimizin başçısına olan məhəbbət vətənimizə və onun işıqlı gələcəyinə olan məhəbbət deməkdir............87
Azərbaycanın inkişafındakı misilsiz xidmətlərinə görə dərin minnətdarlığımızı bildiririk..................................91
Bu diqqət və qayğını biz pedaqoqlar hər gün hiss edirik.....................................................................................95
Prezident İlham Əliyev peşə təhsili pilləsinə xüsusi həssaslıqla yanaşır.....................................................100
İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz dünyada mövqelərini daha da möhkəmləndirmiş və yüksək nüfuz sahibi olmuşdur..........................................................101
Prezident İlham Əliyevin rəhbərliyi dövründə peşə təhsili pilləsinin inkişafı əsas prioritetə çevrilib...................106

Prezident İlham Əliyev: "Bizim görkəmli idmançılarımızın uğurları və nümunəsi bütün gənc idmançılar üçün örnək olmalıdır"................................111
Azərbaycan idmanı da ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edəcəkdir........................112
Cənab Prezidentin təhsilə və idmana olan tükənməz qayğısı sayəsində Azərbaycan idmanı yüksək inkişaf səviyyəsinə çatmışdır...................................................116
Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevlə qürur duyuruq...............................................121

# İlham Əliyev və Azərbaycan

Tirajı: 100